## Biləsuvarda dəhşətli qəza

Avtomobil 2 yerə bölünüb, xəsarət alanlar var



**Biləsuvar rayonunda yol qəzası baş verib.**

"Report"un Muğan bürosunun məlumatına görə, hadisə Nizami küçəsində qeydə alınıb.

Belə ki, "Mitsubishi" və "VAZ 2106" markalı minik avtomobilləri toqquşub. Daha sonra zərbənin təsirindən "VAZ 2106" markalı minik avtomobili iki yerə parçalanıb.

Onun sürücüsü rayonun Xırmandalı kənd sakini, 1996-cı il təvəllüdlü Mehdiyev Cahid Maarif oğlu və sərnişini, Biləsuvar şəhər sakini, 1996-cı il təvəllüdlü Dəmirli Yunis Elmir oğlu xəstəxanaya çatdırılıb.

## Gələn ay bağçalara elektron qəbul başlayacaq



**İyul ayında bağçalara elektron qəbul başlayacaq.**

Bunu Təhsil Nazirliyinin Ümumi və məktəbəqədər təhsilin təşkili və idarəolunması şöbəsinin müdiri Elnur Əliyev deyib.

Onun sözlərinə görə, sentyabr ayına qədər ölkə üzrə bağçalara uşaq qəbulu elektron şəkildə təmin ediləcək.

"Bütün valideynlərə bərabər şərait yaradılması üçün onlar vahid sistemdən qeydiyyatdan keçib övladları üçün müvafiq ərazidə bağça seçib yer əldə edə bilərlər".


№ 99 (5621), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 iyun 2022-ci il (çərşənbə)





## Ankarada küçələrdən birinə Əhməd Cavadın adı verilib

**Ankarada İstiqlal şairi Əhməd Cavadın adı küçələrdən birinə verilib.**

APA xəbər verir ki, bu barədə Azərbaycanın Türkiyədəki səfirliyi məlumat yayıb.

Bildirilib ki, Əhməd Cavadın 130 illiyi münasibətilə onun adına verilən küçənin açılışı olub.



## Ermənistandakı aksiyalar Paşinyanın xeyrinədir

Tofiq Zülfüqarov: "O devrilsə belə, Azərbaycana problem yaranmayacaq"

**"Ermənistandakı hadisələrin miqyası süni şəkildə şişirdilir. Müxtəlif mənbələrə əsasən, aksiyaların fəal üzvlərinin sayı 2 minə yaxındır.**

Böyük rəqəm deyil. Rusiyanın gedişata təsiri aydın görünür. Erməni müəllifi yazıb ki, nəyə görə Çernoqoriya prezidenti gələndə mühafət iqamətgahı blokadaya alıb, amma KTMT nümayəndələri gələndə yox. Bu da insanların hansısa əmrə tabeliyinə işarə verir. Erməni müəllifin fikirləri məntiqlidir".

Bu sözləri "Şərq"ə açıqlamasında Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib.

(səh.3)

## Şoyqu ilə Akar Suriya və Ukraynanı müzakirə edib



**Rusiya və Türkiyə müdafiə nazirləri arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Sergey Şoyqu türkiyəli həmkarı Hulusi Akar ilə Ukrayna və Suriyanı mövzusunu müzakirə edib.

"Türkiyə tərəfinin təşəbbüsü ilə 2022-ci il iyunun 7-də Rusiyanın müdafiə naziri Sergey Şoyqu Türkiyənin milli müdafiə naziri Hulusi Akar ilə telefon danışığı aparıb. Əsas diqqət Ukrayna və Suriyadakı vəziyyətlə bağlı fikir mübadiləsi və dəyərləndirmələrə yönəldilib. Müdafiə nazirləri Ukrayna ərazisindən taxıl ixracı probleminin həlli ilə əlaqədar Qara dənizdə gəmilərin hərəkətinin təhlükəsizliyi məsələlərini ətraflı müzakirə ediblər. Suriyada regionda uzunmüddətli sabitliyin qorunmasına yönəlmiş sıx əməkdaşlığın davam etdirilməsinin vacibliyi də qeyd edilib", - Rusiya MN-in məlumatında qeyd olunub.

# ABŞ sülh prosesini dəstəkləməyə hazırdır

Super güc Azərbaycanla Ermənistan arasında diplomatik səyləri yüksək qiymətləndirib




**Prezidentin köməkçisi Hikmət Hacıyev ABŞ-da səfərdədir. Səfər çərçivəsində Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanla və Türkiyənin Vaşinqtondakı səfiri Həsən Murat Mərcanla görüşüb.**

Prezidentin köməkçisinin Amerika dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridlə görüşü də gözlənilir.

ABŞ Azərbaycanla Ermənistan arasında sülh prosesini müxtəlif üsullarla dəstəkləməyə və sıx əməkdaşlığa hazırdır.

(səh.3)

## Naxçıvan camaatı 30 ildir əziyyət çəkir

Millət vəkili baş nazirin qərarına etiraz etdi



"Üstəlik, biletlərin qiymətini də 10 manat artırırlar ki, Naxçıvana heç kim gedib-gəlməsin"

**Bakı-Naxçıvan reysinə biletlərin qiyməti 10 manat bahalaşıb. Bu barədə müvafiq qərarı Baş nazir Əli Əsədov imzalayıb. İndiyədək uçuş tariflərinə verilən dövlət dotasiyasının məbləği 20 manatdan 10 manata endirilib.**

Ona görə də Azərbaycan vətəndaşlarına Naxçıvan-Bakı reysi üzrə bilet 50 manatdan 60 manata qaldırılıb. Məlumat üçün bildirək ki, Naxçıvanla Azərbaycanın əsas hissəsinin yeganə əlaqə vasitəsi təyyarə nəqliyyatıdır.

(səh.4)



## Paşinyanın müavini danışıqlar aparır

ABŞ və Fransa səfirləri ilə kommunikasiyaların açılmasını müzakirə edib

**Ermənistanın Baş nazirinin müavini Mqer Qriqoryan Fransa səfiri Ann Luyo və Fransa İnkişaf Agentliyinin Cənubi Qafqazdakı nümayəndələri ilə regional nəqliyyat dəhlizlərinin açılmasını müzakirə edib.**

Bu barədə Ermənistan hökumətinin mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, görüş zamanı Ermənistan-Fransa gündəliyindəki məsələlər də müzakirə olunub. (apa)

Mqer Qriqoryan bundan öncə isə ABŞ səfiri Linn Treysi ilə regionda kommunikasiyaların açılmasını müzakirə edib.

## Koronavirusdan 1 nəfər vəfat edib

Daha 10 yeni yoluxma faktı qeydə alınıb



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 10 yeni yoluxma faktı qeydə alınıb, 7 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1-i vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 792 820 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 049 nəfər müalicə olunaraq sağalıb, 9 714 nəfər vəfat edib, aktiv xəstə sayı 57 nəfərdir.*

## Ombudsman narahatdır

Azərbaycanda uşaqların 14 faizi qeyri-rəsmi nikahdan doğulur



**"Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, qeyri-rəsmi nikahların da sayı az deyildir. Belə münasibətlər isə ailə mübahisələrinin yaranmasına, bu cür ailələrdə doğulmuş uşaqların hüquqlarının pozulmasına gətirib çıxara bilər".**

Medicina.az xəbər verir ki, bunu Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva deyib.

Ombudsman bildirib ki, statistikaya diqqət yetirsək, 2020-ci ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulmuş uşaqların sayı doğulan uşaqların ümumi sayının 14 faizini təşkil edib. Bu göstərici risk altında olan uşaqların sayından xəbər verir ki, bu da narahatlıq doğurmaya bilməz.

## Bütün dünya Ukrayna savaşından yorulub

Ona görə də sülh axtarışına çıxıblar



(səh.3)

## Əlvida, ustad!!!

Nəsir müəllim tanrının ona yazdığı 80 illik ömrü ədalətlə, vicdanla yaşadı

(səh.6)





# Gənclər Fondu Müşahidə Şurası yeni tərkibdə təsdiqlənib

**Azərbaycan Respublikasının Gənclər Fondunun Müşahidə Şurası yeni tərkibdə təsdiqlənib.**

Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

*Sərəncama əsasən, yeni tərkib aşağıdakı kimidir:*

**"Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Azərbaycan Respublikası təhsil nazirinin müavini

Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri

"Azərbaycan Tələbə Gənclər Təşkilatları" İttifaqının sədri

Azərbaycan Könüllü Təşkilatları İttifaqının İdarə Heyətinin üzvü

"Azərbaycanlı Tələbələr və Məzunlar Platforması"nın İdarə Heyətinin üzvü."

Qeyd edək ki, Gənclər Fondu Müşahidə Şurasının əvvəlki tərkibi aşağıdakı kimi olub:

**Müşahidə Şurasının sədri**

Məmmədəliyev Yusuf Ülfət oğlu - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

**Müşahidə Şurasının üzvləri**

Babayev İntiqam Vaqif oğlu - Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini

Vəliyeva Məhəbbət Məhərrəm qızı - Azərbaycan Respublikası təhsil nazirinin müavini

Bayramov Rafiq Yasin oğlu - Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini

Kərimli Mətin İmdad oğlu - Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Məcidova Məryəm Teymur qızı - Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri

Orucov Seymur Vaqif oğlu - "Gənclərin İntellektual İnkişafına Yardım" İctimai Birliyinin idarə heyətinin sədri

Vəliyev Seymur Aydın oğlu - "Gələcəyə Körpü" Gənclər İctimai Birliyinin sədri

Ağabəyli Murad Asif oğlu - "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin İcraçı direktorunun müavini.

# "Terrora qarşı mübarizədə heç kim bizə mane olmasın"

## Hulusi Akar: "Millətimizi 40 ildən artıqdır təqib edən terror bəlasından qurtaracağıq"



**"Terrora qarşı mübarizədə heç kim bizə mane olmasın".**

"Report" Türkiyənin Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, bunu ölkənin müdafiə naziri Hulusi Akar Suriyada keçiriləcək antiterror əməliyyatı və Uraynadan taxılını ixracı ilə bağlı jrnalistlərin suallarını cavablandırarkən bildirib.

Onun sözlərinə görə, "terrorçu haradadırsa, hədəf oradır" anlayışı ilə terrora qarı mübarizə davam etdirilir: "Suriyanın şimalında keçirilməsi nəzərdə tutulan antiterror əməliyyatı ilə bağlı lazımi hazırlıqlar görülür. Yeri və vaxtı çatanda lazım gələn addım atılacaq. Millətimizi 40 ildən artıqdır təqib edən terror bəlasından qurtaracağıq. Bununla bağlı əzmliyiik, qətiyik və buna qadirik. Bu məsələ ilə bağlı heç kim qarşımıza çıxıb bizə mane olmasın. Bizim yeganə hədəfimiz terrorçulardır".

Ukraynanın 20 milyondan artıq taxılını dünya bazarına çıxara bilməməsindən danışan nazir deyib ki, bir çox bölgədə insanların ərzağa ehtiyacı var: "Məsələ ilə bağlı BMT, Rusiya və Ukrayna nümayəndələri ilə görüşlər davam edir".

# Qazaxıstan Azərbaycanın strateji müttəfiqidir

## Qarşılıqlı olaraq iki ölkə arasında həm ticarət, həm investisiya əlaqələrinin genişlənməsi müşahidə olunur



**Qazaxıstan və Azərbaycanın müxtəlif qurumları arasında iqtisadi əməkdaşlığa dair bir sıra sənədlər imzalanıb. Əməkdaşlığa dair ilk imzalanan sənəd Qazaxıstanın "Kaztrade" Səhmdar Cəmiyyəti ilə Gəncə İş Adamları İctimai Birliyinin arasında memorandum olub.**

Həmçinin, metal prokatının, günəbaxan yağının, duz və lak-boya məmulatlarının tədarükü üzrə müqavilələr imzalanıb. Eyni zamanda iki ölkənin standartlaşdırma orqanları arasında anlaşma əldə edilib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin idarə heyətinin sədri Orxan Məmmədov deyib ki, Azərbaycan Qazaxıstan iqtisadiyyatına 200 milyon dollardan çox investisiya yatırıb. Ötən il Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsi təxminən 136 milyon dollar təşkil edib. İnvestisiyalara gəlincə isə 1995-2021-ci illər ərzində Azərbaycanın Qazaxıstanın qeyri-neft sektoruna investisiyaları 200 milyon dollardan çox olub. Qazaxıstanın isə Azərbaycanın qeyri-neft sektoruna sərmayələri təxminən 100 milyon dollar təşkil edib. O.Məmmədov bəyan edib ki, Azərbaycan əlverişli biznes və investisiya mühiti ilə tanınır: "Ölkəmizdə 15 mindən çox xarici kapitallı şirkətin qeydiyyatdan keçməsi buna sübutdur. Onların arasında Qazaxıstan kapitallı 159 şirkət (sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, nəqliyyat və xidmət sahələrində) var. Qazaxıstan bazarında Azərbaycan şirkətləri də təmsil olunur.

**İki ölkə arasındakı iqtisadi əməkdaşlığa diqqət çəkən millət vəkili Vüqar Bayramov "Şərq"ə bildirib ki, Qazaxıstan Azərbaycanın strateji müttəfiqidir. Deputat vurğulayıb ki, hər iki ölkə fərqli beynəlxalq qurumlar çərçivəsində əməkdaşlıq edirlər:** "Qazaxıstan və Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və başqa qurumlar nəzdində sıx əməkdaşlıq həyata keçirirlər. Qarşılıqlı olaraq iki ölkə arasında həm ticarət, həm investisiya əlaqələrinin genişlənməsi müşahidə olunur. Son günlər Qazaxıstan və Azərbaycan arasında imzalanan sənədlər, aparılan müzakirələr nəticə etibarı ilə iki dövlət arasında ticarət dövriyyəsinin artmasına, daha çox vəsaitin sərmayə qoyuluşu formasında ölkə iqtisadiyyatına yönəldilməsinə imkan verəcək. Bu da iqtisadi əlaqələrin genişlənməsi baxımından olduqca vacibdir".

**İsmayıl Qocayev**

# "Biz sülhə çağırırıq, gəlmirlər"

## Ceyhun Bayramov: "Sazişin əsas prinsiplərini yazılı şəkildə İrəvana çatdırmışıq"



**"Azərbaycan Türkiyə-Ermənistan münasibətlərinin normallaşmasını dəstəklədiyini ən yüksək səviyyədə ifadə edib. Türkiyə ilə Ermənistanın normallaşma prosesi üçün xüsusi nümayəndələr təyin etməsini və onların keçirdiyi üç görüşü çox müsbət dəyərləndiririk".**

Bunu Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində bildirib. Onun sözlərinə görə, bu, Türkiyə və Azərbaycanın Ermənistana yönəlmiş müsbət mesajlarının nümunəsidir: "Türkiyə və Azərbaycan Ermənistana açıq şəkildə deyir ki, bizim Ermənistanla hər hansı problemimiz yoxdur. Ermənistanla normal qonşuluq münasibətləri qurmağın tərəfdarıyıq və Ermənistan da buna müvafiq addımlar atarsa, beynəlxalq hüquqa hörmət göstərərsə, regional həqiqətləri doğru-düzgün başa düşərsə, bu yolda yaxşı nəticələr əldə etmək mümkün olacaq".

**"Liderlərimiz bu fəlsəfənin əsasını ortaya qoyublar"**

Müsahibəsində Azərbaycan və Türkiyə münasibətlərini iki dövlət arasındakı münasibətlər çərçivəsində qiymətləndirməyin mümkün olmadığını vurğulayan nazir deyib: "Çünki Türkiyə ilə Azərbaycan arasında bu qədər yaxınlıq, qardaşlıq, sədaqət münasibətləri var. Bizim əlaqələrimiz dövlətlər arasındakı münasibətlərdən daha yüksək səviyyədədir. Bizim liderlərimiz bu fəlsəfənin əsasını ortaya qoyublar". Türk xalqının ulu öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimizdir, Azərbaycanın kədəri bizim kədərimizdir!" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət!" kəlamlarını xatırladan Ceyhun Bayramov iki ölkə arasında əlaqələrin daim daha da möhkəmləndiyini ifadə edib: "Şuşa Bəyannaməsi onu müttəfiqlik səviyyəsinə qaldırdı və gələcəyə baxaraq bir çox sahələrdə yeni hədəflər qoydu. Azərbaycan və Türkiyənin ikitərəfli əlaqələrlə yanaşı, bir çox beynəlxalq məsələlərdə də əməkdaşlıq etdiyini vurğulayan C.Bayramov qeyd edib ki, Türk Dövlətləri Təşkilatı da mühüm qərarlar qəbul edir və bu qərarlar təşkilata daxil olan dövlətlər arasında münasibətlərə, həmçinin bölgə xalqlarına müsbət töhfə verir".

**"Bu qardaşlıq, müttəfiqlik günü-gündən daha da möhkəmlənəcək"**

Nazir bildirib ki, Azərbaycan-Türkiyə münasibətləri indiyə qədər olduğu kimi, gələcəkdə də ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq artan dinamika ilə inkişaf edəcək: "Bu qardaşlıq, müttəfiqlik günü-gündən daha da möhkəmlənəcək. Azərbaycan həmişə bütün dövlətlərlə mehriban qonşuluq münasibətlərinin həyata keçirilməsinin tərəfdarı olub. Lakin 1990-cı illərdə Azərbaycana qarşı işğalçılıq siyasəti həyata keçirdiyi üçün Ermənistan istisna olub. Birinci Qarabağ müharibəsində Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. Bu səbəbdən də işğal dövründə Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması ilə bağlı danışıqlar aparılmadı". Azərbaycanın İkinci Qarabağ müharibəsində Ermənistanın işğalına son qoyduğunu xatırladan nazir bundan qısa müddət sonra ölkəmizin keçmişdə baş verən hadisələri bir kənara qoyaraq Ermənistanı iki ölkə arasında münasibətlərin normallaşması və sülh sazişinin əldə olunması üçün lazımi addımlar atmağa çağırdığını deyib.

**"Zəngəzur dəhlizi Ermənistan üçün də önəmlidir"**

Təxminən bir ilə yaxındır ki, Ermənistandan bu çağırışa cavab gəlmədiyini bildirən Ceyhun Bayramov qeyd edib ki, buna baxmayaraq, Azərbaycan bu ilin əvvəlində iki ölkə arasında mümkün sülh sazişinin əsas prinsiplərini yazılı şəkildə İrəvan administrasiyasına çatdırıb. Azərbaycanın bu addımının beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını və təşəbbüslərin sürətləndiyini deyən nazir xatırladıb ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında son iki ayda iki dəfə görüş baş tutub. Bildirilib ki, Şarl Mişelin təşəbbüsü ilə keçirilən görüşlərdə Azərbaycanla Ermənistan arasında mümkün sülh sazişində yer alacaq məsələlər müzakirə olunub. Bundan əlavə, iki ölkə arasında nəqliyyatın açılması, sərhədlərin müəyyənləşdirilməsi komissiyalarının fəaliyyətə başlanması kimi məsələlər ətrafında da fikir mübadilələri aparılıb.

Ceyhun Bayramov bildirib ki, Zəngəzur dəhlizi məsələsində konkret nəticə yoxdur. Ermənistan müxtəlif bəhanələrlə bu məsələni uzatmağa davam edir. Nazir qeyd edib ki, bölgədə kommunikasiya baxımından ən məhdud imkanlara sahib ölkə Ermənistandır: "Bu səbəbdən Zəngəzur dəhlizinin reallaşması digər bölgə ölkələri qədər Ermənistan üçün də önəmlidir".

**İsmayıl**

# Xankəndidə silahlı toqquşma gözlənilir

## Bakı "ictimai asayişin bərpa edilməsi" adı ilə müdaxilə etmək imkanlarını nəzərdən keçirə bilər



**"Xankəndidəki separatçı-terrorçu rejimin qondarma "təhlükəsizlik şurası"nın iclasını keçiriblər".**

Bunu "Şərq"ə siyasi şərhçi Asif Nərimanlı deyib. Analitik bildirib ki, həmişə "xarici təhlükə" adı ilə Azərbaycanın mümkün anti-terror əməliyyatlarına hazırlaşan separatçılar bu dəfə "daxili təhlükəsizliyi" müzakirə ediblər: "Əsas məqam "asayişi pozan şəxslərin müəyyən edilməsi"dir və bu, Ermənistandakı proseslər fonunda təsadüfi deyil. "Qarabağ klanı"nın separatçı rejimi ələ keçirmək, İrəvana Xankəndidən təzyiq etmək planı var. Bu məqsədlə Xankəndidə silahlı qarşıdurma yaradıla bilər. Ötən ay "general-mayor" Samvel Karapetyanın Xankəndidə silahlı atışması da bu senarinin mümkünlüyünü aktuallaşdırdı. Araikin "daxili təhlükəsizlik" və "asayişi pozan şəxslər" məsələsini gündəmə gətirməsi buna hesablanıb. Bu, Xankəndidə silahlı toqquşmanın yaşana biləcəyi ehtimalını önə çıxarır. Bu senari işə düşərsə, Bakı "ictimai asayişin bərpa edilməsi", "erməni vətəndaşların təhlükəsizliyinin qorunması" əsası ilə müdaxilə etmək məsələsini gündəmə gətirə bilər".

**İsmayıl**

# Ankara dünyaya pəncərə rolunu oynayır

## Türkiyə iqtisadi böhranı da aradan qaldırmağa çalışır

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrov dünən Türkiyənin paytaxtı Ankaraya səfər edib. Qeyd edək ki, S.Lavrovun Türkiyəyə səfəri iyun ayının 8-nə nəzərdə tutulsa da, bir gün qabağa salınıb.**

Rusiya XİN rəhbəri türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşüb. Masaya yatırılan ən kritik məsələ müharibə səbəbindən Qara dənizdə ilişib qalan ticarət gəmiləri üçün təhlükəsizlik dəhlizinin açılması mövzusu olub. Gəmilərin rahat şəkildə səfərlərini davam etdirmələri üçün Odessa limanında yerləşdirilən minaların çıxarılması və Rusiya gəmilərinə tətbiq edilən sığorta məhdudiyyəti üçün həll yolları axtarılır.

Ankara bu müddətdə Ukrayna ilə də təmas yaradaraq, iki ölkə arasında vasitəçi rolunu oynayacaq. Müzakirə olunacaq digər bir məsələnin isə Türkiyənin Suriyada yürütdüyü



antiterror əməliyyatlarıdır.

**Səfərin pərdə arxasını şərh edən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov qeyd edib ki, indiki vəziyyətdə Türkiyə Rusiyanın dünyaya açılan yeganə pəncərəsidir:**

"Qardaş ölkə regionda supergüc olmaq yolunda əminliklə addımlayır. Bilirik ki, bütün dünya ticarəti Rusiya ilə Türkiyə üzərindən əlaqə saxlaya bilir. Lavrovla Ərdoğanın Ukraynadan ixrac olunan taxılın koridor vasitəsi ilə Türkiyəyə, ordan da dünyaya paylanılması təklifi müzakirə ediləcək. Bununla yanaşı, Suriyada aparılan antiterror əməliyyatı nəticəsində Rusiyanın mövqeyinin zəifləməsi məsələsi ətrafında fikir mübadiləsi aparılacaq. Ən vacib amil dünyada taxıl qıtlığına səbəb olacaq böhranın aradan qaldırılmasıdır. Türkiyə həm NATO, həm Rusiya, həm də Ukrayna ilə əlaqələrini qoruyur.

Rəsmi Ankara ABŞ-ın İkinci Dünya müharibəsində işlətdiyi taktikanı müvəffəqiyyətlə davam etdirərək regiondakı yerini möhkəmləndirir".

**Nihat Müzəffər**

# ABŞ sülh prosesini dəstəkləməyə hazırdır

## Super güc Azərbaycanla Ermənistan arasında diplomatik səyləri yüksək qiymətləndirib



**Prezidentin köməkçisi Hikmət Hacıyev ABŞ-da səfərdədir. Səfər çərçivəsində Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Ceyk Sallivanla və Türkiyənin Vaşinqtondakı səfiri Həsən Murat Mərcanla görüşüb. Prezidentin köməkçisinin Amerika dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridlə görüşü də gözlənilir.**

ABŞ Azərbaycanla Ermənistan arasında sülh prosesini müxtəlif üsullarla dəstəkləməyə və sıx əməkdaşlığa hazırdır.

Trend-in məlumatına görə, bunu ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşü zamanı deyib.

C.Sallivan ABŞ-ın Cənubi Qafqazda sülh, təhlükəsizlik və rifaha sadiqliyini vurğulayıb. O, Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhün əldə olunmasına yönəlmiş diplomatik səyləri yüksək qiymətləndirib.

Sallivan Brüsseldə Avropa İttifaqı Şurasının prezidentinin iştirakı ilə keçirilmiş danışıqlara dəstəyini bildirib və ABŞ-ın bu prosesi müxtəlif üsullarla dəstəkləməyə və sıx əməkdaşlığa hazır olduğunu vurğulayıb.

Rəsmi Vaşinqton son illər ərzində Azərbaycana qarşı mövqeyini kəskin surətdə dəyişib. Təsadüfi deyil ki, ilin əvvəlindən bu günə qədər ABŞ Prezidenti Co Bayden Azərbaycan Prezidenti İlham Əliyevə üç təbrik məktubu göndərib. Ekspertlərin firkincə, indiki məqamda rəsmi Vaşinqtonun Bakıya marağının artmasının bir neçə səbəbi var. 44 günlük müharibə sonrası Azərbaycanın Cənubi Qafqazda siyasi reallıqları əsaslı surətdə dəyişib. Azərbaycan NATO-nun aparıcı ölkələrindən olan Türkiyə ilə münasibətlərini ittifaq səviyyəsinə qədər yüksəldib. Türkiyə-İsrail münasibətləri 15 ildən sonra yenidən normallaşma mərhələsinə qədəm qoyub. Rəsmi Bakı iki ölkə münasibətlərinin normallaşmasında pərdəarxası vasitəçi ölkə idi. Digər yandan ABŞ başa düşür ki, Avropa İttifaqının Rusiya qazından birbaşa və ya tədricən imtinası mümkün deyil. Buna görə də alternativ ölkələrə ehtiyac var.

> “ABŞ-Azərbaycan münasibətlərində yeni dönəm başlayıb, Vaşinqton üçün regionda ən məqbul ölkə Azərbaycandır”

**Siyasi şərhçi Turan Rzayev ”Şərq”ə bildirib ki, Vaşinqton üçün ən məqbul ölkə məhz Azərbaycandır. Analitikə görə, Azərbaycanın TAP və TANAP kimi enerji layihələrini müharibə reallıqlarına baxmayaraq, qısa zamanda yekunlaşdırması Vaşinqtonun diqqətindən yayınmayıb:** ”Hikmət Hacıyevin çantasında birdən çox mövzunun olduğunu demək olar. Rəsmi Bakı Baydenin təbrik məktubu üzərindən verdiyi mesajlara bu səfərlə müsbət baxdığını qarşı tərəfə çatdırır. Təbii ki, Azərbaycanın hər mövzuda ABŞ-la ortaq düşünmədiyi də aydındır. Rəsmi Bakı xarici siyasətinin prioriteti olan balans siyasətindən imtina etmək istəmir. Daha fərqli desək, ABŞ-ın Qərb blokuna qoşulmur. ABŞ supergüc ölkədir və bütün sahələrdə imkanları genişdir. Rəsmi Bakı üçün belə bir ölkə ilə münasibətləri inkişaf etdirmək vacibdir. Bununla belə Hikmət Hacıyevin Ceyk Sallivanla görüşü əsnasında müzakirə edə biləcəyi bir sıra spesifik mövzular var. Avropa İttifaqının Rusiya qazından birbaşa və ya tədricən imtinasının mümkün olmadığını başa düşən ABŞ Azərbaycanın Avropaya qaz nəqlini artırmasını istəyir. Ancaq Bakının mövcud imkanları Vaşinqtonun istəklərini qarşılamır. Xüsusilə, TAP və TANAP layihələrinin indiki potensialı buna uyğun deyil. Hesab edirəm, bu istiqamətdə Qərbin texnologiya və investisiya dəstəyinə ehtiyac var”.

T.Rzayev qeyd edib ki, iki ölkə arasında münasibətlərin inkişaf etməsi fonunda rəsmi Bakı Vaşinqtondan ”907-ci düzəliş”i ləğv etməsini istəyə bilər: ”Düzdür, ”907-ci düzəliş”ə müvəqqəti moratorium qoyulub. Amma bu, düzəlişin büsbütün ləğvi mənasına gəlmir. Rəsmi Bakı ilk növbədə qadağanın tamamilə ləğvi istiqamətində səyləri artırmalıdır. Vaşinqtonun qərarı rəsmi Bakının balans siyasətinə təsir edə bilər. Azərbaycan bərpa prosesi fonunda Qərb və ABŞ şirkətlərinin işğaldan azad edilmiş ərazilərə investisiya qoymasında maraqlıdır. Bu məsələnin də tərəflər arasında müzakirə edilməsi mümkündür”.

**İsmayıl Qocayev**

# Ermənistandakı aksiyalar Paşinyanın xeyrinədir

## Tofiq Zülfüqarov: “O devrilsə belə, Azərbaycana problem yaranmayacaq”



**”Ermənistandakı hadisələrin miqyası süni şəkildə şişirdirilir. Müxtəlif mənbələrə əsasən, aksiyaların fəal üzvlərinin sayı 2 minə yaxındır.**

Böyük rəqəm deyil. Rusiyanın gedişata təsiri aydın görünür. Erməni müəllifi yazıb ki, nəyə görə Çernoqoriya prezidenti gələndə müxalifət iqamətgahı blokadaya alıb, amma KTMT nümayəndələri gələndə yox. Bu da insanların hansısa əmrə tabeliyinə işarə verir. Erməni müəllifin fikirləri məntiqlidir”.

**Bu sözləri ”Şərq”ə açıqlamasında Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib.**

T.Zülfüqarovun sözlərinə əsasən, əslində müxalifətin etirazları N.Paşinyanın xeyrinədir:

”N.Paşinyan digər öhdəlikləri yerinə yetirmək üçün etirazların imkan vermədiyini göstərməyə çalışır. Bu, köhnə variantdır.

Paşinyanın apardığı siyasət iki mənbədən qaynaqlanır. Birincisi, real hərbi, siyasi, iqtisadi imkanlardan, ikincisi isə erməni ”millətçi” olduğuna görədir. Şərait uyğunlaşsaydı, iki il əvvəlki kimi Şuşada rəqs edərdi, amma imkanı yoxdur. Paşinyandan xoş niyyətini gözləmək düzgün olmaz.

Müxalif qüvvələrin hakimiyyətə gəlməsinə şübhə ilə yanaşıram. Əgər gəlsələr, bir çox səhvlərə yol verərlər. Belə halda vəziyyəti öz xeyrinə dəyişmək üçün Azərbaycana imkanlar açılacaq. Hər halda Paşinyanın hakimiyyətdən devrilməsini düşünmürəm, o devrilsə belə, Azərbaycana problem yaranmayacaq”.

Qeyd edək ki, Ermənistan paytaxtı İrəvanda Baş nazir Nikol Paşinyanın istefası tələbi ilə etiraz aksiyaları səngimir. Müxalifət onun başçılıq etdiyi hökuməti Qarabağ məsələsində ”yolverilməz güzəştlərə getməkdə” ittihamlar səsləndirir.

**Aygün Tahir**

# 2023-cü il seçkiləri gündəmdədir

## Ərdoğanla Dövlət Baxçalının il ərzində dördüncü görüşü baş tutub



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident Külliyesində Milliyətçi Hərəkat Partiyasının rəhbəri Dövlət Baxçalı ilə görüşüb.**

”Şərq” qəzeti Türkiyə mətbuatına istinadən xəbər verir ki, kritik zirvə təxminən 1 saat davam edib. Görüşlə bağlı məlumat verən ”CNN Türk” kanalının müxbiri Arda Ərdoğan deyib ki, iki liderin il ərzində dördüncü görüşü baş tutub: ”Suriyada həyata keçirilməsi planlaşdırılan yeni əməliyyat gündəmdə idi. Ukrayna limanlarında gözləyən taxılın dünya bazarlarına daşınması üçün Türkiyənin hansı yolla iştirak edəcəyini tapmaq məsələsi müzakirə olundu. Bu məsələ hər iki liderin gündəmində idi. Təbii olaraq 2023-cü il seçkiləri də iki liderin gündəmindədir”. Qeyd edək ki, Ərdoğanla Baxçalı arasında əvvəlki görüş martın 3-də Prezident Külliyesində keçirilib.

**İsmayıl**



# Bütün dünya Ukrayna savaşından yorulub

## Ona görə də sülh axtarışına çıxıblar

**İsmayıl Qocayev**

**Ukrayna Prezidenti Volodimir Zelenski növbəti dəfə Qərbi ittiham edib. O, iddia edib ki, Qərb ölkələri Ukraynanı Rusiya üçün əlverişli şərtlərlə sülh bağlamağa sövq edib. Zelenski bildirib ki, Kiyev müzakirələrə dəvət olunmadığı üçün bu barədə tam məlumatlı deyil:**

”Hər kəs həqiqətən də bizi hansısa nəticəyə gəlmək üçün mümkün qədər nəyəsə sövq etmək istəyir. Bu, bizim üçün heç də arzuolunan deyil, çünki bizdən hələ heç bir şey soruşulmayıb. Lakin öz maraqları olan müəyyən tərəflər üçün faydalıdır”. Onun sözlərinə görə, bəzi partiyalar maddi, digərləri isə siyasi qazanc axtarır. Zelenski qeyd edib ki, dünya Ukraynadakı müharibədən bezib, ona görə də insanlar müəyyən nəticə istəyirlər: ”Bizə nəticə lazımdır. Ancaq mən bu müharibənin bizim üçün müsbət həlli istiqamətində heç bir razılaşma əldə etməmişəm”.

> “Əgər ABŞ və Böyük Britaniya Ukraynaya dəstəyi kəssə, Zelenski biabırçı şərtlərlə sülhə getməyə məcbur qalacaq”

**Zelenskinin Qərbi ittihamını ”Şərq”ə dəyərləndirən politoloq Turab Rzayev bildirib ki, Qərb ölkələri arasında fikir ayrılığı var. Ekspert vurğulayıb ki, Avropa dövlətləri - konkret Almaniya və Fransa müharibə istəmir:** ”Rəsmi Berlin bunu dəfələrlə açıq bəyan edib. Hətta bu mövqeyə görə, Ukrayna rəhbərliyi Almaniya prezidentini ölkəyə buraxmamaq qərarı almışdı. Eyniylə Fransa Prezidenti E.Makron bir neçə bəyan edib ki, Rusiyanın siması qorunmalıdır. Yəni bu, o deməkdir ki, Rusiya bu müharibədən tam məğlub və biabırçı tərəf kimi çıxmamalıdır. Bu məsələdə Ukraynanı anqlosakson blok adlanan - Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və s. ölkələr dəstəkləyir. Ancaq bu dövlətlər də Kiyevə daha böyük miqyasda dəstək göstərmirlər. Düzdür, hərbi cəhətdən, silah-sursat baxımından Ukraynaya yardım edildi. Həmçinin, silahlı muzdlular da göndərildi. Amma bunlar Rusiyanı dayandırmağa kifayət etmədi. Rusiya Luqansk vilayətinin mərkəzini ələ keçirdi, həm Qara dəniz bölgəsində xeyli ərazini nəzarətinə aldı. Ukraynanın 20 faizi işğal altındadır. Nəinki, Qərb, artıq bütün dünya bu savaşdan yorulub. Ona görə də sülh axtarışına çıxıblar. ABŞ və Böyük Britaniyanın mövqeyi daha maraqlıdır. Əgər bu iki ölkə Ukraynaya dəstəyi kəssə, Zelenski biabırçı şərtlərlə sülhə getməyə məcbur qalacaq. Bir müddət öncə Ukrayna daha uyğun şərtləri Türkiyə vasitəsi ilə almışdı. Lakin Londondan aldığı dəstəklə Kiyev bundan imtina etdi və müharibəni davam etdirmək qərarına gəldi”.

**T.Rzayevin sözlərinə görə, zaman Qərbdə fikir ayrılıqlarının, tərəddüdlərin baş qaldırdığını göstərir:** ”ABŞ dövlət xadimi Henri Kissincerin çıxışı və toxunduğu məqamları yada salaq. O deyirdi ki, Ukrayna müəyyən güzəştlərə getməli və Putinlə sülh bağlamalıdır. Həmçinin, Kissincer vurğulayırdı ki, Rusiya 400 ildir Avropanın təhlükəsizliyində mühüm rol oynayıb. Görünür, Qərbdə xeyli dairələr hələ Rusiyanın Avropanın təhlükəsizliyində xüsusi rolunun olmasını istəyirlər. Qısa müddət ərzində Ukraynaya ciddi dəstək görməyəcəyimizi düşünürəm. Zaman keçdikcə Avropa ölkələri Rusiya ilə separat danışıqlara gedəcəklər”.

# Sevgiləri tükənməzdir

## Ceyhun Bayramovla Mövlud Çavuşoğlu liderlərindən ilham alıblar





> “Azərbaycan və Türkiyə prezidentləri arasındakı dostluq XİN başçıları səviyyəsində də müşahidə edilir”

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlunun dəvəti ilə Türkiyəyə səfər edib. Nazir Ankarada Türkiyə Prezident Kitabxanasının qurulmasının 30 illiyinə həsr edilən tədbirdə iştirak edib.**

Səfər çərçivəsindəTürkiyə və Azərbaycan arasında ikitərəfli münasibətlər və regional məsələlər müzakirə olunub. Azərbaycanın xarici işlər naziri Azərbaycan-Türkiyə müttəfiqliyinin bölgədə sülh və əmin-amanlığa, iqtisadi tərəqqiyə xidmət etməsindən bəhs edib.

Onun sözlərinə görə, nəhəng regional layihələr, iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsi nəticəsində Azərbaycanla Türkiyə enerji və logistika mərkəzlərinə çevrilib.

**Sosial Tədqiqatlar Mərkəzinin baş mütəxəssisi, politoloq Tural İsmayılov ”Şərq”ə açıqlamasında Azərbaycan XİN rəhbərinin Türkiyə səfərinin önəmli bir dövrə təsadüf etdiyini deyib.**

Onun sözlərinə görə, Azərbaycan XİN başçısının Türkiyə səfəri iki ölkə rəhbərliyi arasındakı daimi və sıx təmasların davam etdirilməsidir: ”Nəzərə almaq lazımdır ki, Azərbaycan və Türkiyə həm Şuşa Bəyannaməsi, həm də Bakı Bəyannaməsi ilə daim təmasda olmalıdırlar. İki ölkənin xarici siyasətinin mərkəzi sayılan XİN səviyyəsində müzakirə və görüşlərin davamlı olmağı da təbiidir. Həmçinin bir faktoru da nəzərə almaq lazımdır ki, Azərbaycan və Türkiyə prezidentləri arasındakı dostluq XİN başçıları səviyyəsində də müşahidə edilir. Cənab İlham Əliyev və Ərdoğan arasında olan dostluq elə Ceyhun Bayramov və Mövlud Çavuşoğlu arasında da mövcuddur. Eyni zamanda Çavuşoğlunun Azərbaycan sevgisi də ayrıca qeyd edilməlidir. Burada iki vacib komponent var. Birincisi, bu səfər çərçivəsində bir neçə gün öncə Azərbaycan və Ermənistan arasında delimitasiya üzrə işçi qrupların Moskvada görüşləri keçirilib. İkincisi isə Ceyhun Bayramovun bu səfəri ərəfəsində Lavrov da Türkiyəyə səfər edəcək və Türkiyə yaxın bir həftə ərzində xeyli sayda ölkənin XİN rəhbərlərini qəbul edəcək”.

**Politoloqun fikrincə, Türkiyə və Azərbaycan 3+3 formatının çevik şəkildə addımlar atmağını istəyir. Türkiyə təkcə Azərbaycan və Ermənistan arasındakı münasibətlər, Rusiya ilə gələcək əməkdaşlıq və Ukrayna böhranını deyil, 3+3-ün aktivləşdirilməyini də müzakirə edəcək:** ”Masada bu formatın işləkliyi ətrafında konkret təkliflərin olacağını düşünürəm. Eyni zamanda Türkiyə ilə Rusiya arasında Ukrayna limanlarından ərzaq idxalının böhranlara qarşı effektivliyi ətrafında müzakirələr aparılacaq. Masada bu qərarın və növbəti Rusiya-Türkiyə anlaşmasının Azərbaycan və Türkiyənin ərzaq təhlükəsizliyində oynadığı önəmli rola da toxunulacaq. Bağlı qapılar arxasında Ukrayna ilə münasibətlərin normallaşmağında Türkiyə və hətta Azərbaycanın da moderatorluğunun imkanları təhlil ediləcək. Mənə elə gəlir ki, Türkiyə və Rusiya yaxınlaşmağına qarşı həmişə aqressiv yanaşan Qərb bu danışıqlardan narahatlıq keçirə bilər. Amma Türkiyənin öz dövlət maraqları var. Bu günə qədər də Qərbdən gələn təhdidləri yerindəcə zərərsizləşdirib”.

**Şəymən**

# Naxçıvan camaatı 30 ildir əziyyət çəkir

## Millət vəkili baş nazirin qərarına etiraz etdi





"Üstəlik, biletlərin qiymətini də 10 manat artırırlar ki, Naxçıvana heç kim gedib-gəlməsin"

İsmayıl Qocayev

**Bakı-Naxçıvan reysinə biletlərin qiyməti 10 manat bahalaşıb. Bu barədə müvafiq qərarı Baş nazir Əli Əsədov imzalayıb. İndiyədək uçuş tariflərinə verilən dövlət dotasiyasının məbləği 20 manatdan 10 manata endirilib.**

Ona görə də Azərbaycan vətəndaşlarına Naxçıvan-Bakı reysi üzrə bilet 50 manatdan 60 manata qaldırılıb. Məlumat üçün bildirək ki, Naxçıvanla Azərbaycanın əsas hissəsinin yeganə əlaqə vasitəsi təyyarə nəqliyyatıdır. O səbəbdən aviabiletlərin 10 manat bahalaşması vətəndaşların, xüsusən naxçıvanlıların kəskin etirazına səbəb olub. Sosial şəbəkə istifadəçiləri iqtisadi problemlərin yaşandığı, ərzaq və qeyri-ərzaq bahalaşmasının açıq-aşkar hiss olunduğu bir dövrdə üstəlik təyyarə biletlərinin qiymətinin də qalxmasını sərt tənqid ediblər.

**Nazirlər Kabinetinin qərarını "Şərq"ə dəyərləndirən millət vəkili, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa qiymət artımının Naxçıvan camaatına əziyyət verdiyini deyib.** Deputat vurğulayıb ki, indiki məqamda yoxsul insanları düşünmək lazımdır: "Naxçıvana başqa alternativ yol varmı? İran vasitəsilə Naxçıvana getmək iztirablı yoldur. İnsanlar gedib-gələ bilmirlər. Gediş-gəliş onlara böyük əziyyət bahasına başa gəlir. Xəstəsi, əlili, çətinlik içində olan yüzlərlə insan var. Niyə düşünmədən addım atırlar? Başqa sahələrdə yüzlərlə korrupsiya istiqamətləri var, oradan azaltsınlar. Mənasız xərcləri ixtisar etsinlər. İndiki qiymətin özü də bahadır. Naxçıvan üçün 50 manat çox idi. Qiyməti qaldırmaq yox, əksinə, 40 manata endirmək lazım idi. Camaat qiymətlərin enməsini gözləyirdi, amma bilet 60 manata qaldırıldı. Bilet tapmağın özü problemdir, insanlar əldən güclə tapırlar, üstəlik, 20 manat da əlavə pul verirlər. Bu məsələdə heç bir əsaslı arqument yoxdur. Heç bir əsaslandırma inandırıcı gəlmir. Başa düşürük, Naxçıvana gediş-gəliş dotasiya yolu ilədir, amma bu qədər yeyilən vəsaitlər elə Naxçıvanın üzərinə qalıb?! Sanki, düşünürlər ki, görək, başqa necə əziyyət verə bilərik? Onsuz da Naxçıvan camaatı 30 ildir əziyyət çəkir. Blokada şəraitindədir, məhsulunu kənara satışa çıxara bilmir. Naxçıvan camaatının bir qismi Bakıda, digərləri İstanbulda acınacaqlı vəziyyətdə yaşayır. Türkiyədə ora-bura səpələniblər. Üstəlik, biletlərin qiymətini də 10 manat artırırlar ki, Naxçıvana heç kim gedib-gəlməsin. Tamamilə yanlış addımdır. Bu məsələdə heç kimə haqq qazandıra bilmərəm".

> "Bu məsələdə heç bir əsaslı arqument yoxdur. Heç bir əsaslandırma inandırıcı gəlmir. Başa düşürük, Naxçıvana gediş-gəliş dotasiya yolu ilədir, amma bu qədər yeyilən vəsaitlər elə Naxçıvanın üzərinə qalıb?!"

**Parlament üzvü ümumiyyətlə, aviabiletlərin qiymətinin çox yuxarı olduğunu söyləyib:** "İstanbula, Berlinə, Parisə uçuş qiymətləri həddindən artıq bahadır. Biletlər Ermənistandan 5 dəfə baha satılır. Məgər ermənilər bizdən varlı yaşayır? Gürcüstanla müqayisədə biletlərin qiymətləri dəfələrlə yüksəkdir. Ən çox adam İstanbula gedir, işlək reysdir. Niyə bu reysi iki-üç qat baha edirlər? Bizim təyyarələr ən bahalısıdır. Təyyarə qiymətlərinə görə, ölkəyə turist gəlmir. Quruma bu boyda pullar ayrılıb, dövlət zəmanəti ilə borc götürülüb, təyyarələr alınıb. Dövlət niyə bunun bədəlini ödəməlidir ki? Məntiqi izahını tapa bilmirəm".



# Bir azdan sakitləşəcəklər

## Erməni müxalifəti Bakı ilə artıq başlanmış sülh prosesini pozmaq gücündə deyil

**Ermənistanda may ayının əvvəlindən davam edən etiraz aksiyaları zamanı zorakılıq halları artıb. Çünki gündəlik aksiyalar dövlət çevrilişi cəhdlərinə və küçə toqquşmalarına çevrilməkdədir. Nümayişçilər bir neçə dəfə hökumət binasına basqın etmək istəyiblər.**

Baş nazir Nikol Paşinyanın fəaliyyətini sərt tənqid edən müxalifətçilərlə polislər arasında toqquşmalar olub. Polisin sərt müdaxilə etdiyi etirazlar zamanı 100-dən çox nümayişçi saxlanılıb. Paşinyanın əleyhdarları demək olar ki, hər gün axşam saatlarında paytaxt İrəvanın "Fransa" meydanına toplaşırlar. Nümayişçilər yürüş zamanı Paşinyan əleyhinə şüarlar səsləndirir, istefasını tələb edirlər. Erməni mediası yazır ki, aksiya keçirən müxalifət fəalları xaricdəki havadarlarından yardım istəyirlər. Müxalif "Ermənistan" fraksiyasından olan vitse-spiker İşxan Saqatelyan deyib ki, Ermənistana çoxsaylı beynəlxalq nümayəndə heyətləri gələcək və bu istiqamətdə işlər aparılacaq. Erməni politoloq Levon Şirinyan iddia edib ki, Rusiyanın agent şəbəkəsi Ermənistandakı mitinqləri koordinasiya etməyə çalışır. Onun sözlərinə görə, dövlət özünü müdafiə etməyi bacarmalıdır: "Ermənistanda baş verən mitinqləri Rusiya təşkil edir. Ötən gün baş verənlər hücum idi, iğtişaş idi. Aksiyaçılar dövlət qurumlarına, hüquq-mühafizə orqanlarına hücum edirlər. Məqsədləri bu eskalasiya hesabına dalğanı qızışdırmaqdır. Aydındır ki, burada rus izi, yəni ölkəni qeyri-sabit saxlamaq məsələsi var. Onların əhəmiyyətli bir hissəsinin Rusiya KQB-nin keçmiş agentləri olduğuna heç bir şübhəm yoxdur. Rusiya palçığda qalıb. Ermənilərin Rusiyaya qarşı qeyri-rasional münasibəti belə bir görüntü yaradır ki, o ölkə bata bilməz. Amma o gəmi batdı. Onun bizimlə məşğul olmağa vaxtı yoxdur".

**Ermənistandakı etirazları "Şərq"ə təhlil edən politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, davamlı etiraz aksiyaları müxalifətin iştahını artırır. Analitik qeyd edib ki, müxalifət məhz "Qarabağ kartı"ndan istifadə edərək 20 ildən artıq hakimiyyətdə qala bilib:** "Prosesləri yenidən həmin müstəviyə daşımağa çalışırlar. Məsələ ondadır ki, Brüssel görüşündən sonra danışıqlara və müəyyən nəticələrin olacağına ümid yaranıb. Ermənistan müxalifəti, "Qarabağ klanı" bunun qarşısını almaq niyyəti güdür. Etiraz aksiyalarının məqsədi, səsləndirilən şüarlar da məhz buna xidmət edir. Nümayişçilərin sayında az nisbətdə say artımı olsa da, geniş kütlələrin köhnəlmiş müxalifəti etimadı yoxdur. Geniş elektorat müxalifətə dəstək vermir. Narazılıq prosesini kiçik qruplarla davamlı etməyə, sürdürməyə çalışırlar. Əgər "Qarabağ klanı" və onlara bağlı dairələrin əlində daha təsirli rıçaqlar olsaydı, Paşinyanı çoxdan devirmişdilər. Göründüyü kimi məğlub da olsa, Nikol Paşinyanın dayaqları daha güclüdür. İrəvan hökumətinin etirazların öhdəsindən gələcəyini və rəsmi Bakı ilə danışıqları davam etdirəcəyini düşünürəm. Baş nazir Paşinyan Azərbaycanla danışıqlarda ölkə daxilindəki etirazlardan müəyyən məqamlarda istifadə edə bilər. Öz şərtlərini irəli sürmək üçün ermənilərin narazılıqlarını ortaya atar. Ancaq müxalifət rəsmi Bakı ilə artıq başlanmış bir prosesi pozmaq gücündə deyil. Bir müddət sonra etirazlar səngiyəcək. Əslində müxalifəti Qarabağın taleyi düşündürmür. Sadəcə, fürsətdən yararlanaraq Paşinyanı mümkün qədər xalqın gözündən salmağa cəhd göstərirlər".

İsmayıl Qocayev

# Regionda sülhün təminatçısı birlikdir

## Azərbaycan və Türkiyə gücləndikcə Qafqazın gələcəyi üçün ümidverici dəyişikliklər olacaq



**Ankarada Türkiyə Prezident Kitabxanasının qurulmasının 30 illiyinə həsr edilən tədbir keçirilib. Davamlı sülh və sabitlik üçün mühüm addım atılıb. Bu barədə Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov tədbirdə bildirib. O qeyd edib ki, qardaş dövlətin brendinin "Türkiyə" olaraq dəyişdirilməsi ilə bağlı təbriklərimi çatdırıram:**

"Bu brend qardaş ölkənin ən yaxşı şəkildə təqdim olunmasıdır. Bu il biz Türkiyə-Azərbaycan diplomatik münasibətlərinin bərpa edilməsinin 30 illiyini qeyd edirik. Təsadüfi deyil ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Türkiyə olub. Əlaqələrimiz strateji müttəfiqlik səviyyəsinədək yüksəlib. Türkiyənin Azərbaycana beynəlxalq hüquqa əsaslanan dəstəyini yüksək dəyərləndiririk".

**Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru Toğrul İsmayıl "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan-Türkiyə birliyi Qafqazda yeni istiqrar və barışın təminatıdır:**

"Dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bunun üçün yeni 3+3 platformasını təqdim etdilər. Bu da ölkələr arasında iş birliyi deməkdir. Türkiyə-Gürcüstan-Azərbaycanın bu üçlü modelin başqa bir formatı şəklində daha əvvəldən bir əməkdaşlığı var. Eyni zamanda Rusiya, Ermənistan və İranın da belə bir formada iş birliyini görürük. Digər tərəfdən 44 günlük savaşdan sonra ölkəmiz öz ərazilərini işğaldan qurtarmaqla birlikdə rəsmi İrəvanın əlindəki ən vacib silahı alıb. Bu da bazarlıq imkanlarını məhdudlaşdırıb. Ən önəmlisi isə Türkiyənin siyasi və diplomatik dəstəyini alan Azərbaycan bu zəfərlə birgə bölgədə sözükeçən dövlət halına gəlib. Yeni qələbə qazanmış ölkənin hər zaman bəzi məsələlərdə diktə etmə haqqı var. Həmçinin Azərbaycan-Türkiyə Şuşa Bəyannaməsi ilə birlikdə ikili münasibətləri müttəfiqlik səviyyəsindən strateji mərhələyə çıxarıblar. Bu da çox vacib məsələdir. Yeni ərazidəki siyasətin gerçək mənada balanslaşdırılmış hala gəldiyinə şahid olduq. Bu da həm ölkəmizin əlini gücləndirib, həm də Türkiyənin Cənubi Qafqaza yerləşməsi üçün zəmin yaradıb. Bu əməkdaşlıq sayəsində həm Ermənistanla alıcı sülh müqaviləsinin imzalanması, həmçinin ərazi bütövlüyünün tanınması və digər məsələlərin də həllinə imkan yaradacaq. İki qardaş ölkə iqtisadi, siyasi, diplomatik çərçivədə daha da gücləndikcə Qafqazın gələcəyi üçün çox ümidverici dəyişikliklər ortaya çıxır. Bunun təməlində də qalıcı sülhün təmin edilməsi dayanır".

Sücayət Mehti





# Meriya işə vicdanla, planla girişməlidir

## 3 milyon 777,2 min manat böyük məbləğdir

**Bakı Şəhər İcra Hakimiyyəti paytaxtda məhəllədaxili yolların və səkilərin asfalt örtüyünün təmirinə, həmçinin bəzi yaşayış binalarının təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması üçün bu işləri icra edəcək şirkətlərə 3 milyon 777,2 min manat ödəyəcək.**

Söhbət BŞİH-yə məxsus "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC-nin paytaxtda məhəllədaxili yollarda və səkilərdə asfalt örtüyünün təmirinin, eləcə də dövlət mənzil fonduna aid binaların təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanmasının, inzibati binasının əsaslı təmir-bərpa işlərinin davam etdirilməsinin satınalınması ilə bağlı elan etdiyi 3 açıq tendere yekun vurulmasından gedir. "Report" dövlət satınalmalarının vahid internet portalına istinadən xəbər verir ki, tenderlərin qalibi "Xezer-Construction", "Creat Company" MMC-lər və "Cronos" Mənzil-Tikinti Kooperatividir. Qalib şirkətlərə müvafiq olaraq 2 milyon 510,7 min manat, 285,6 min manat və 980,9 min manat, ümumilikdə isə 3 milyon 777,2 min manat ödəniləcək. Bu xəbəri oxuyanda istər-istəməz "yenə də asfalt, yenə də yol tikintisi?!" deyib təəccüb və təəssüf etməmək mümkün deyil. Bakının yolları nə gündədir ki, 21-ci əsrin başlanğıcından bugünədək elə hey təmir olunur, amma yollar bitib tükənmir. Sanki bu şəhərin dərdi ancaq yollardır, bir də binaların fasad hissəsinin üzlənməsi, rənglənməsi. Bəs binaların zirzəmilərində göllənən və iylənən çirkab suları nə zaman çəkiləcək? Paytaxt sakinlərinin canı, həm də yayın istisində ağcaqanadlardan nə zaman xilas olacaq? Hələ sakinlərin "liftdə ölmək istəmirəm", deyib 7-9-cu mərtəbəyə payi-piyada yaxmaqları... Problem təkcə bunlar deyil. Paytaxtın mərkəzdən kənar elə məhəllələri var ki, ildə bir dəfə ya təmizlənə, ya təmizlənməyə. Onlar kimsənin yadına da düşmür. Yağış yağanda dəryaya çevrilən yollar, su altında qalan həyətlər, mənzillər, zibilləri dizə çıxan ara küçələr. Kanalizasiya suları yollara axan məhəllələr. Bunlar paytaxta aid deyil?! Bakı ancaq mərkəzi küçələrdən ibarətdir. Gəl ki, heç bu mərkəzi küçələrdə də düzəməlli iş aparılmır. Məsələn, 5-6 ağac kəsiləndən sonra aidiyyəti qurumlar birdən yuxudan "ayılır" və "ağac qatillərini" axtarmağa başlayırlar. Amma ki, faydasız. İnkar etmirik. Paytaxtda abadlaşan, gözəlləşən bağlar, parklar var. Lakin sakinlər o park və bağlardan ayrılıb mənzillərinə yol aldıqda yenə köhnə problemlərlə üz-üzə gələcəklərini bildiklərindən az qalırlar gecəni də parkda keçirsinlər. Demək ki, sakinlərin problemləri həllini tapmır. Bir parkla iş düzəlmir. Bakı Şəhər İcra Hakimiyyətində mart ayının əvvəli bir müşavirə keçirilmişdi. Müşavirədə yaz mövsümünün başlanmasıyla əlaqədar şəhərdəki park, istirahət bağları, "Abad məhəllə"lərdə cari təmir işlərinin aparılması, ağac və yaşıllıqlara qulluq göstərilməsinə dair tapşırıqlar verilmişdi. Görürsünüz, yenə də park, bağ, yaşıllıqlar. Bir dəfə də binaların zirzəmiləri haqqında tapşırıq verilsin, camaat da "əhsən", desin.



> "Amma hər dəfə eyni küçələrin asfalt örtüyü təzələnir, eyni məhəllələr, eyni parklar abadlaşdırılır"

**Məsələ ilə bağlı "Şərq"ə danışan Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı qeyd edir ki, 3 milyon 777,2 min manat böyük məbləğdir. Bu məbləğə hansı işlərin görüləcəyi konkret göstərilməlidir:**

- Əsas məsələ tenderlərin şəffaflığının təmin edilməsidir. Bilirsiz ki, bizim ölkədə tenderlərə münasibət birmənalı deyil. İndiyədək çox belə hallarla qarşılaşılıb ki, rəsmi orqanlar, yüksək vəzifəli məmurlar yaxınlarının, qohum-əqrəbalarının adına olan şirkətləri tender qalibi elan edib, dövlət büdcəsindən ayrılan vəsaiti həmin şirkətlərin hesabına köçürüb, sonra da məlum olub ki, qeyd olunan işin heç yarısı görülməyib, ortada böyük yeyinti var. BŞİH-yə məxsus MMC-nin tender qalibi elan etdiyi şirkətlərdən söhbət getmir. Biz bilmirik bu şirkətlər hansı işi görəcək, necə görəcək. Bunu zaman göstərəcək. Lakin ümumiyyətlə, tenderlər şəffaf keçirilməli, ayrılan vəsaitin hara, necə xərcləndiyinə dair açıq məlumatlar olmalıdır, vətəndaş da bilsin ki, dövlət vəsaiti hara xərclənir. Tenderdə işin həcmi təyin edilir, şirkətlər də müsabiqədə iştirak edir, kimisi qalib olur, kimisi yox. İctimaiyyəti, paytaxt sakinlərini narahat edən görülən işin keyfiyyəti və ayrılmış vəsaitə nə dərəcə uyğun olmasıdır.

**M.Zülfüqarlı qeyd etdi ki, hər il təxminən eyni miqyaslı işlərin icra edilməsi narazılıq doğurur:**

- Hər dəfə təxminən eyni küçələrin asfalt örtüyü təzələnir, eyni məhəllələr, eyni parklar abadlaşdırılır. Paytaxtın gözdən-könüldən uzaq məhəllələri yenə əvvəlki kimi asfaltsız, natəmiz vəziyyətdə qalır. Mərkəzi küçələr abadlaşır, kənar küçələr olduğu kimi qalır. Belə çıxır ki, BŞİH kənar məhəllələrin, qəsəbə yollarının abadlaşmasına zərurət görmür. Bakının problemləri çoxdur. İctimai nəqliyyatdan tutmuş, tıxaclara və binaların zirzəmilərinə qədər. Amma nə görürük, binaların fasadı rənglənir, ağaclara əhəng çəkilir, dövlət strukturlarının inzibati binalarının önü abadlaşır, gül-çiçəyə bürünür. Bununla da iş bitir. Hər inzibati rayonun illik büdcəsi var. Hər inzibati rayonda il ərzində görülməsi vacib işlər müəyyənləşməlidir və bu işlərin icrası aparılmalıdır. Bunun üçün də hər bir məmur vəzifəsinə vicdanla yanaşmalıdır. Hər inzibati rayonun icra orqanı öz ərazisində hansı işlərin görülməli olduğunu, sakinlərin nədən narazı qaldığını bilməlidir. Təəssüf ki, belə deyil.

Məlahət Rzayeva



Rusiyanın hədiyyə etdiyi silahlar hesabına təmin olunurdu. Maraqlıdır ki, rəsmi İrəvan bu ənənəni davam etdirməyə can atır. Rusiyadan Ermənistan ordusunun yenidən qurulması üçün ödənişsiz hərbi texnika və silahlar ala biləcəyinə hələ də ümid bəsləyir. Halbuki, Paşinyan hakimiyyətinin bütün ümidlərinə baxmayaraq, Rusiyanın məlum ənənəni davam etdirə biləcəyi artıq o qədər də inandırıcı görünmür".

**E.Xalidbəyliyə görə, hazırda Rusiyanın özünün hərbi texnikaya kəskin ehtiyacı yaranıb:** "Kreml ehtiyatında olan bütün müasir hərbi texnikanı Ukrayna savaş poliqonuna yeridib. Bu ehtiyatlar artıq tükənmək üzrə olduğundan, Kreml hətta Rusiya ordusunu ötən əsrin 70-ci illərində arsenaldan çıxarılmış T-62 tankları ilə təchiz etmək məcburiyyətində qalıb. Belə davam edərsə, Rusiya yaxın aylarda II Dünya müharibəsində istifadə etdiyi "Katyuşa"lara da möhtac qala bilər.

# Qərbi itirir, Kremldən də nicat yoxdur

## Rusiyanın Ermənistana daha hədiyyə edəcəyi silahı qalmayıb

**"Ermənistan Rusiyaya yaxınlaşdıqca, ABŞ rəsmi İrəvana himayəsini ittiham mesajları ilə əvəzləyir". Bu barədə siyasi şərhçi Elçin Xalidbəyli deyib. Analitik bildirib ki, Rusiyanın Ermənistana veriləcək hərbi texnikası, rəsmi İrəvanın isə müasir silahlar alacaq maliyyə vəsaiti yoxdur: "Ermənistan Baş naziri Nikol Paşinyan revanşistlərin Rusiyanın "sehirli çubuğu" ilə küçə və meydanlara çıxdığını başa düşür.**

Ona görə də rəsmi İrəvanın son vaxtlar Kremllə anlaşmağa çalışdığı barədə məlumatlar mövcuddur. Həmin məlumatlara görə, Paşinyan hakimiyyəti Rusiya Xarici işlər naziri Sergey Lavrovdan Ermənistana səfəri çərçivəsində açıq dəstək gözləyir. Əvəzindəsə, Ermənistanda olan və Rusiyanın vaxtaşırı gündəmə gətirdiyi ABŞ-ın gizli biolaboratoriyaları ilə bağlı Kremlə prinsipial güzətşlər təklif edir. Ancaq Kreml Paşinyan hakimiyyətinə qətiyyən güvənmir. Ona görə də əvvəlcə ABŞ-ın gizli biolaboratoriyalarına nəzarət hüququ istəyir. Yalnız bundan sonra Paşinyan hakimiyyətinə Rusiyanın açıq siyasi dəstəyini vəd edir. Rusiya və Ermənistan arasındakı bu "siyasi bazarlıq" ABŞ və Qərb tərəfindən də diqqətlə izlənilir. Ağ Evin ABŞ Dövlət Departamentinin son hesabatının Ermənistan əleyhinə məzmunu ilə rəsmi İrəvana xəbərdarlıq mesajı verməsinin səbəblərindən biri də məhz budur".

**Politoloq vurğulayıb ki, rəsmi İrəvanın Ermənistanı Rusiyanın orbitində tutmaq niyyətinin arxasında hərbi xarakterli hədəflər də olmamış deyil:** "Ermənistan ordusu Azərbaycanla 44 günlük savaş nəticəsində darmadağın edilib. Rəsmi İrəvanın isə Ermənistana yeni ordu qurmaq imkanları demək olar ki, yoxdur. Çünki yeni ordu üçün ilk növbədə müasir hərbi texnika almaq lazımdır.

Ermənistan iqtisadiyyatı isə çökmüş vəziyyətdə olduğundan, rəsmi İrəvan maliyyə qaynaqlarına möhtac qaldığından Qərb ölkələrindən müasir hərbi texnikanın alınması mümkün görünmür. Ermənistan əslində, müstəqillik illərində heç vaxt maliyyə vəsaiti sərf etməklə hərbi texnika və silah ala bilməyib. Ermənistan ordusunun hərbi ehtiyacları

Belə vəziyyətdə Rusiyanın Ermənistana hərbi texnika hədiyyə edə biləcəyinə yalnız sadəlövhlər inana bilər. Hətta möcüzə baş verib, Kreml Ermənistana silah versə belə, bu, yalnız müasir savaş texnologiyalarından 50-60 il geri qalan köhnə və yararsız hərbi texnikadan başqa bir şey olmayacaq. Yəni hazırda Rusiyanın Ermənistana hədiyyə etmək üçün hərbi texnikası yoxdur. Ermənistanın isə ödəniş edib, müasir hərbi texnika almaq üçün maliyyə vəsaiti mövcud deyil. Belə anlaşılır ki, rəsmi İrəvan nə qədər ümid etsə də, cəhdlər göstərsə də, Ermənistan ordusunu yenidən qurmaq şansları qətiyyən yoxdur. Böyük ehtimalla rəsmi İrəvan indiki siyasi kursuna sadiq qalarsa, Ermənistan hələ bir neçə onillik ərzində ordusuz qalacaq. Bu o deməkdir ki, Qərbdəki himayədarlarını da tədricən itirməkdə olan, Rusiyadan da gözlədiyi hərbi dəstəyi ala bilməyən Ermənistan gələcək mövcudluğunu real təhlükə altına atır".

**İsmayıl**

# Zəngəzura gözəl bir yol çəkilir

## Bu yol Gəncədən başlayaraq Kəlbəcərə, oradan Laçına, daha sonra Qubadlı və Zəngilana gedəcək



**Uzun müddətdir Qarabağ və Şərqi Zəngəzurda işğalçı Ermənistanın dağıtdığı, xaraba qoyduğu yaşayış sahələrində genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Ekspertlərin fikrincə, ərazidə ilk növbədə, infrastrukturun yaradılması, vaxtilə mövcud olmuş magistralların yenidən qurulması və yeni yolların çəkilməsi mühüm önəm daşıyır. Çünki bu məsələlər şəhər və kəndlərin salınmasını, məskunlaşmanın reallaşmasını şərtləndirir.**

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynovun sözlərinə görə, torpaqlarımızın işğal altında olan müddətdə yol infrastrukturunun böyük əksəriyyəti sıradan çıxarılıb. Bu da ərazilərin bərpası prosesini ciddi şəkildə ləngidir. Bu mənada mövcud yolların bərpası və yol infrastrukturunun şaxələndirilməsi düşməndən təmizlənən torpaqların dirçəlməsi üçün mühüm əhəmiyyət kəsb edir: "Fikrimcə, Şərqi Zəngəzurda görülən möhtəşəm yenidənqurma işlərində yollarin tikintisi çox vacibdir. Şərqi Zəngəzurun şimal və cənubunu, həm də ölkəmizin qərb sərhədləri boyu şimal-qərbi ilə cənub-qərbini birləşdirən gözəl bir yol çəkilir. Bu yol Gəncədən başlayaraq Kəlbəcərə, oradan Laçına, daha sonra Qubadlı və Zəngilana gedəcək. Eyni zamanda nəqliyyat axınlarının diversifikasiyasına əlverişli şərait yaradacaq və regionda həyata keçirilməsi planlaşdırılan quruculuq işlərini daha da sürətləndirəcək".

*Ekspertin fikrincə, bu yol ölkəmizin iki beynəlxalq əhəmiyyətli avtomobil yolunu - Bakı-Ələt-Qazax Gürcüstanla sərhəd yolu ilə Hacıqabul-Bəhramtəpə-Horadiz-Şərqi Zəngəzur-Naxçıvan yolunu bir-biri ilə birləşdirəcək:* "Yol Kəlbəcər və Laçın ərazisində çox mürəkkəb relyefi olan ərazilərdən keçdiyindən yolda bir neçə tunel olacaq. Onlardan ən böyüyü Murov tuneli olacaq. Tikintisinə rəsmən 2021-ci ilin avqustundan başlanılan Murov tuneli təxminən 11600 metr olacaq. Qazma işləri eyni vaxtda hər iki tərəfdən - həm Kəlbəcərdən, həm də Göygöl tərəfdən aparılır. Göygöl (Toğana kəndi) tərəfdən 1200 metrdən artıq, Kəlbəcər (Yanşaq kəndi) tərəfdən isə 650 metrdən artıq hissə qazılıb. Hazırda işlər fasiləsiz davam edir".

**Şəymən**



# İntiharın yaşı və səbəbləri dəyişir

## Qocaların əsəb sistemi pozulub, yeniyetmələrin intiharında isə valideynlərin günahı var



**Bir gündə iki intihar hadisəsi baş verib. Hadisənin mahiyyəti eyni olsa da, intihar edənlərin yaş qrupları kəskin fərqlənir. Birinci hadisə paytaxtın Xətai rayonu, Cavanşir küçəsi, ev 18-də qeydə alınıb. Həmin ünvanda yaşayan, 16 yaşlı Göyçə Tahir qızı Nəsibova çoxsaylı həb qəbul edərək canına qəsd edib. Təcili xəstəxanaya yerləşdirilən Göyçə Nəsibova orada dünyasını dəyişib.**

İkinci intihar hadisəsi isə Beyləqanda baş verib. Hadisə rayonun İkinci Şahsevən kəndində baş verib. Kənd sakini 60 yaşlı Raya Quliyeva evinin həyətindəki yardımçı tikilidə özünü asaraq həyatına son qoyub. Onun hansı səbəbdən intihar etməsi hələlik bilinmir.

Hər iki faktla bağlı araşdırma aparılır.

**Psixoloq Gülnar Orucova yaşlı insanların intihar səbəblərini "Şərq"ə açıqlayıb. O bildirib ki, son zamanlarda belə hallara çox rast gəlinir:**

"İntihar hadisələri gün keçdikcə artır. Yaş həddi və intihar səbəbləri də getdikcə dəyişir. Əvvəllər intiharı sevgiyə, maddiyyata görə edirdilərsə, indi bu format dəyişib. Hətta valideynlə yeniyetmə arasında mübahisə olanda belə, o, intihar edir. Son zamanlar yaşlı insanlar arasında qətl hadisələri də çox olur. Kişi həyat yoldaşını öldürür, pəncərədən atır və başqa formalarda. Fikir versək, görərik ki, insanların üzlərində aqressiya, gərginlik və məyusluq var. Bunu bəzən maddi durumla əlaqələndirirlər. Düzdür, pul insanı xoşbəxt etmir, amma pulsuz insan bədbəxt olur.

Eyni zamanda, yaşlı insanlarda əsəb və sinir sistemi daha gərgin olur. Onlar üçün həyatın mənası azalır. Ona görə yaşlı insanların qatil olma, intihar etmə riski də artır. Bu səbəbdən onlara hörmətlə yanaşmaq, fikirləri ilə razı olmasaq da bunu normal şəkildə dilə gətirmək lazımdır".

**Psixoloqun sözlərinə görə, yeniyetmələrin intiharlarında valideynlərin də günahı var:**

"Bizim milli-mental dəyərlərimiz var. Bu milli-mental dəyərlərimiz gənclər arasında pozulur və intihar hallarının çoxu o zəmində baş verir. Nə qədər bunun üstü bağlansa da, gizlədilsə də, belə olur. Belə vəziyyətdə intihar varsa, valideyn birmənalı şəkildə günahkardır. Çünki uşaq valideynin onu bağışlamayacağını düşünür və intihar edir.

Digər tərəfdən isə gənclər ali məktəbə qəbul olmadıqlarına görə intihar edir. Bu, doğru deyil. Sanki universitet uğrunda mübarizə aparırıq. Valideynlər bir-biri ilə yarışır. Uşaqlarını mədəni surətdə şantaj edir, cəzalandırır, qorxudur, qadağalar qoyur və s. Bir sözlə, valideyn uşağın üzərinə qaldıra bilməyəcəyi yük qoyur. Bu da birbaşa intihara gətirib çıxarır.

Bundan əlavə, bəzi valideynlər övladlarına qadağalar qoyur. O qədər qadağalar qoyurlar ki, uşaqlarda ona qarşı maraq oyanır. Qadağaların səbəblərini isə izah etmirlər. Səbəbləri izah etmək, nə ilə nəticələnəcəyini anlatmaq lazımdır".

**Çimnaz Şahlar**

# Antiterror əməliyyatları istisna olunmur

## Polkovnik: "Azərbaycan Ordusu və onun tərkib hissəsi olan Raket və Artilleriya Qoşunları döyüş fəaliyyətinə hazır olmalıdır"

**Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq Quru Qoşunlarının raket və artilleriya bölmələrinin özüyeriyən haubitsa heyətləri ilə döyüş atışlı taktiki təlim keçirilib. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, təlimin planına əsasən atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ehtiyat atəş və start mövqelərini tutublar.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin sərrast atəşlə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.



**Ehtiyatda olan polkovnik Şair Ramaldanov Azərbaycan ordusunun təlimlərini "Şərq"ə şərh edib. O bildirib ki, raket və artilleriya bölməsi müharibənin Allahı sayılır:** "Azərbaycan Ordusunda daim döyüş hazırlığı ilə bağlı təlimlər baş tutur. Ordumuzun döyüş hazırlığı planı üzrə öz hazırlığını və döyüş qabiliyyətini yüksəldir. Əlbəttə, onların döyüş hazırlığı xüsusi önəm daşıyır. Ona görə Azərbaycan Ordusunda da bu sahəyə xüsusi diqqət yetirilir. Digər tərəfdən bütün növlər üzrə ayrı-ayrı təlimlər keçirilir. Daha sonra onların fəaliyyəti əlaqələndirmə stilində irimiqyaslı təlimlərdə tətbiq olunur. Qazanılan təcrübə və bilik-bacarıq məhz irimiqyaslı təlimlərdə öz əksini tapır. Hər yerdə olduğu kimi, Azərbaycan Ordusunda da hazırlıqda sadədən mürəkkəbə doğru gedən yol xəritəsi var".

**Ş.Ramaldanov baş tutan təlimlərin antiterror əməliyyatları ilə əlaqəsini izah edib. O qeyd edib ki, bu gün terrorçuluqla mübarizə bütün dünyanı əhatə edir:** "Elə bir təlim yoxdur ki, orada antiterrorla mübarizə şüarı qoyulmasın. Təbii ki, Azərbaycan Ordusu da hər an Ali Baş Komandan İlham Əliyev tərəfindən qoyulan hər hansı tələbi və tapşırığı yerinə yetirməyə hazır olmalıdır. Bunun üçün də antiterror əməliyyatlarını istisna etmirik.

Azərbaycan Ordusu və onun tərkib hissəsi olan Raket və Artilleriya Qoşunları döyüş fəaliyyətinə hazır olmalıdır və antiterror əməliyyatı aparılarsa, əlbəttə, öz öhdəsinə düşən tapşırıq və vəzifələri yerinə yetirilməlidir.

Azərbaycanın Raket və Artilleriya Qoşunları böyük təcrübə yolu keçib. Azərbaycanın apardığı 44 günlük müharibədə özünü göstərərək, böyük təcrübə qazanıb".

Polkovnik onu da əlavə edib ki, bu qoşunun mütəxəssisləri öz peşəkarlığı ilə seçilir və biz onların peşəkarlığını, bacarığını, qəhrəmanlığını təsdiqləyən çoxsaylı videomaterialları Vətən müharibəsi müddətində də gördük.

**Çimnaz Şahlar**

# Taxılla bağlı ən böyük çətinlik payızda gözlənilir

## Rusiya ilə Ukrayna bazara qayıtmasalar qiymətlər daha da bahalaşacaq



**Rusiyanın Ukraynaya hərbi müdaxiləsi və Hindistanın gözlənilmədən buğda ixracına qadağa qoyması səbəbindən dünyada ciddi taxıl böhranı müşahidə olunmaqdadır. Son aylarda dünyanın ən böyük taxıl resurslarına malik ölkələri buğda ixracatını dayandırıblar.**

8 milyard dollarlıq ixracatı ilə dünyada xaricə ən çox buğda satan Rusiyaya, 3,5 milyard dollar eksport ilə ilk beşliyə daxil olan Ukrayna satışa stop qoyublar. Hətta ildə 107 milyon ton buğda yetişdirən Hindistan da ixracatın tənzimlənməsi ilə bağlı qərar qəbul edib. O cümlədən Qazaxıstan da xaricə buğda satmamağa qərar verib. Qazaxıstan hər il xaricə 1 milyard 137 milyon dollarlıq buğda satır və dünyada 9-cu ən böyük ixracatçı idi. Tədricən digər ölkələrdə də mərhələli şəkildə məhdudiyyətlər tətbiq edilir. Bu qərarlar illərdir ərzaq böhranı ilə mübarizə aparan ölkələrin vəziyyətini daha da pisləşdirib. 90 ölkədə fəaliyyət göstərən, Böyük Britaniyada yerləşən beynəlxalq yardım təşkilatı "Oxfam"ın Avropa İttifaqının Qida Mütəxəssisi Hanna Saarinen illərdir aclıqla mübarizə aparan ölkələrdəki ərzaq böhranını və son vəziyyəti xarici media qurumlarından birinə dəyərləndirib. O bildirib ki, dünya misli görünməmiş aclıq böhranına doğru gedir: "Həll qlobal istehsalı artırmaq deyil, əslində fermerlər bütün dünyanı qidalandırmaq üçün lazım olduğundan daha çox məhsul istehsal edirlər. Bərabərsizlik, ədalətsizlik və yoxsulluq aclığın əsas səbəbidir". Saarinen vurğulayıb ki, iqlim dəyişikliyi, pandemiyanın yaratdığı və müharibə ilə müşayiət olunan qarışıqlığa son qoymaq üçün bir çox ölkələrin resursları yoxdur: "Qiymətlərin qalxması bütün qlobal ərzaq sistemi üçün fəlakətdir. Rusiya və Ukraynadakı vəziyyət digər ölkələrə gözlənildiyindən daha çox təsir edir. Ukrayna və Rusiya qlobal ərzaq bazarında mühüm oyunçulardır. Çünki aclıq səviyyəsi yüksək olan bəzi ölkələr buğdalarının əhəmiyyətli bir hissəsini Ukrayna və ya Rusiyadan idxal edirdilər". BMT-nin Ukrayna üzrə böhran koordinatoru Amin Avad da bildirib ki, dünyada 1,5 milyard insan Ukrayna taxılından, Rusiyanın ərzaq və gübrəsindən asılıdır. Ona görə də taxıl ixracını bərpa etmək üçün danışıqlar mümkün qədər tez başa çatdırılmalıdır. Xatırladaq ki, BMT baş katibinin humanitar məsələlər üzrə müavini Martin Qriffits bu məsələni müzakirə etmək üçün hazırda Moskvada Rusiya hökumətinin nümayəndələri ilə görüşlər keçirir.

**İqtisadçı-ekspert Pərviz Heydərov "Şərq"ə bildirib ki, dünyada taxıl problemi hələ keçən ildən özünü göstərməyə başlayıb. Ekspert vurğulayıb ki, qlobal miqyasda taxılçılıq sahəsində problemləri pandemiya şəraiti yaradıb:** "Bu sahədə qiymətlər hələ keçən ildən bahalaşmağa başlamışdı. Rusiya-Ukrayna müharibəsi isə vəziyyətin düzələcəyinə yenicə ümidlər yarandığı bir şəraitdə durumu daha da qəlizləşdirdi. Müharibənin iki cəhətdən mənfi təsiri oldu. Birincisi, Rusiya-Ukrayna müharibəsi ümumən dünyada iqtisadi gərginlik yaratdı. İkincisi isə hər iki ölkə özləri də mühüm taxıl istehsalçıları və tədarükçüləri olduqlarından vəziyyət mürəkkəbləşdi. Hazırda vəziyyət ciddidir. Biçin dövrü problemi nisbətən pərdələyəcək. Ancaq ən böyük çətinliklər payızda gözlənilir. Müharibə davam edərsə, taxıl problemi bütün dünyanı ağuşuna alacaq. Qiymətlər kəskin artacaq. Lakin hesab edirəm, iri taxıl ixracçıları tərəfindən məhdudiyyətlər qarşılıqlı güzəşt şəklində yumşaldılarsa, dünya böyük çətinliklər çəkməyəcək. Müharibə aparan Rusiya ilə Ukrayna bazara qayıtmasalar müsbət nəticələr və dəyişikliklər gözləmək əbəsdir".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

# Erməni vəhşiliyini hər kəs gözləri ilə görür

## Xarici diplomatların işğaldan azad olunmuş ərazilərimizə səfəri səsimizi dünyaya çatdıracaq



**44 günlük "Vətən müharibəsi"ndən sonra Prezident İlham Əliyevin müvafiq tapşırığı əsasında dövlət xətti ilə mütəmadi şəkildə işğaldan azad olunmuş rayonlarımıza beynəlxalq təşkilat nümayəndələrinin və diplomatların səfərləri təşkil edilir.**

Səfərin məqsədi ermənilər tərəfindən törədilmiş dağıntıları, vəhşilikləri, xüsusilə onların həmin ərazilərdən çıxdığı dövrdə məqsədli şəkildə yaratdıqları problemləri diplomatik korpusun nümayəndələrinin diqqətinə çatdırmaq və yerində tanış olmalarına şərait yaratmaqdır.

Bu məqsədlə diplomatik korpusun 9-cu səfəri çərçivəsində 50-dən çox ölkə, 10-dan çox təşkilatdan 80 nəfərə yaxın diplomat Kəlbəcərə səfər edib.

Səfər çərçivəsində xarici diplomatlar Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı "Tunel qırğını"nın törədildiyi Kəlbəcər-Laçın tunelində olub, "Kəlbəcər-1" Su Elektrik Stansiyası, yeni inşa edilən Murovdağ tuneli, Bayraq meydanı, Tarix-diyarşünaslıq muzeyi, Qədim daş heykəlləri, Şahmat məktəbinin binası və "İstisu" sanatoriyasını ziyarət ediblər. Daha sonra qonaqlar Kəlbəcər şəhərinə gəlib, erməni vəhşiliyi nəticəsində yerlə-yeksan edilən infrastrukturla tanış olublar. Burada məscid, bayraq meydanı, tarixi-diyarşünaslıq muzeyi, qədim daş heykəllər və şahmat məktəbinin binasının dağıntılarının şahidi olan nümayəndə heyətinə şəhərin tarixi, dağıdılmış binalar barədə məlumat verilib, erməni işğalından əvvəl burada çəkilmiş şəkillər göstərilib. Nümayəndə heyətinə erməni vandalları tərəfindən ərazilərimiz işğal olunandan sonra oradakı təbii sərvətləri də istismar edildiyi bildirilib. Vurğulanıb ki, İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyniadlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Səfər çərçivəsində Kəlbəcəri ziyarət edən diplomatlar növbəti dəfə əyani şəkildə gördülər ki, erməni qəsbkarları 30 illik işğal dövründə hansı vandallıq aktları, necə vəhşiliklər törədiblər, Azərbaycan xalqının maddi və mənəvi irsinə qarşı hansı talan və terror siyasəti yürüdüblər.

Qeyd edək ki, xarici diplomatlar Kəlbəcərdən əvvəl Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Qubadlı və Ağdam və Şuşada olublar.

Dünyanın ən nüfuzlu informasiya agentliklərindən olan "Reuters"in Şuşa şəhəri barədə hazırlamış olduğu reportaj da məhz bu cür səfərlərin məntiqi nəticəsidir.

Xarici medianın səhifələrində yer alan yazıda qeyd olunub ki, Şuşa ərazisini meşəli təpələri və yumşaq iqlimindən dolayı bir zamanlar "Azərbaycanın İsveçrəsi" adlandırırdılar: "İl yarım öncə Azərbaycan qüvvələrinin geri aldığı Şuşa 1992-ci ildə ermənilərin 15 min azərbaycanlı əhalini qovaraq zəbt etdiyi şəhərdir. Burada məskunlaşan və adını "Şuşi" qoyan 4 000-ə yaxın etnik erməni geridə 1992-ci ilin izlərini hələ də daşıyan boş bir şəhəri qoyub qaçıb", - yazıda qeyd olunub.

Bildirilib ki, Azərbaycanın inşaatçıları şəhərin küçələrini tədricən dirçəldirlər.

**Millət vəkili Sahib Alıyev "Şərq"ə açıqlamasında deyib ki, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun rəhbərlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin işğaldan azad olunmuş rayonlarımıza səfəri həm mövcud vəziyyətin öyrənilməsi, həm də əsl həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından çox önəmlidir.** Onun sözlərinə görə, səfərlərdə diplomatların tam dolğun məlumatla təmin olunması onların təmsil etdikləri ölkələrin düzgün məlumatlandırılması və yalan və qərəzli siyasi kampaniyaların qarşısının alınmasıdır. Bu, bir daha Azərbaycanın bu kimi məsələlərdə açıqlığını və şəffaflığını göstərir: "Diplomatik korpus təmsilçilərinin arasında vaxtı ilə Azərbaycanın haqq səsini eşitməyən, hər zaman Ermənistanın maraqlarını müdafiə edən ölkələrin də diplomatları var. Hansı ki, bu ölkələr Ermənistanın Azərbaycan torpaqlarını işğal edib 30 il tapdaq altında saxlamasına sivilizasiyalararası qarşıdurma prizmasından yanaşıb və Ermənistanı da öz sivilizasiyaları hesab edərək qeyri-obyektiv və beynəlxalq hüquqdan kənar mövqe sərgiləyiblər. Bu səfərlər çərçivəsində Azərbaycan dövləti həmin ölkələrə müdafiə etdikləri ermənilərin necə vəhşi və barbar bir ölkə olduğunu diktə edir. Görün ki, sizin öz sivilizasiyanızdan saydığınız Ermənistan işğal faktorunu inkar edib özlərinin ata yurdu kimi təqdim etdikləri torpaqlarda nə cür vəhşiliklərə əl atıblar. Əgər bu torpaqlar doğrudan da ermənilərin idisə, bu cür vəhşiliklər, dağıntılar niyə edilib? Hansı millət öz torpaqlarında urbansit, ekosit və bəşər tarixinə belə məlum olmayan tarixi cinayətlər törədər? Bu baxımdan işğaldan azad olunmuş rayonlarımıza edilən diplomatik səfərlər törədilmiş dağıntılar və cinayətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir".

**Millət vəkilinin sözlərinə görə, bu dağıntıların foto və videolarını çəkərək sənədləşdirib beynəlxalq təmsilçilərə təqdim etməklə, həmin dağıntıların ayrı- ayrı dövlətlərin və beynəlxalq təşkilatların təmsilçilərinin birbaşa iştirakı ilə çəkilərək arxivləşdirilməsi eyni deyil:** "Biz elə bir həyasız və xəstə xislətli toplumla üzüzəyik ki, onlar istənilən vaxt faktları inkar edə, təqdim edilən dağıntıların başqa ölkələrə məxsus olduğunu iddia edə bilərlər. Azərbaycan torpaqlarında azərbaycanlılara məxsus dini və tarixi abidələrin dağıdılmasına, təbii sərvətlərimizin talan olmasına göz yuman beynəlxalq qurumları fakt qarşısında qoymaq baxımından bu cür səfərlərin əhəmiyyəti böyükdür. ABŞ Dövlət Departamentinin hesabatlarında Azərbaycanın işğaldan azad edilən torpaqlarındakı erməni barbarlığı öz əksini tapıb, amma qismən. Orada da müəyyən qərəz və obyektivlikdən uzaq nüanslar var. Azərbaycana məxsus qədim Alban abidələrini "hay" abidələri kimi təqdim ediblər. Bu gün isə Azərbaycan həqiqətlərinin Dövlət Departamenti səviyyəsində etiraf edilməsi belə məhz bu cür diplomatik səfərlərin məntiqi nəticəsidir. Onlar da başa düşürlər ki, Azərbaycanda akreditasiyadan keçən diplomatik və beynəlxalq missiya nümayəndələrinin böyük əksəriyyəti işğaldan azad olunan rayonlara səfər edib erməni vəhşiliyinin canlı şahidi olub, Azərbaycanın 67 dini abidəsindən 63-nün necə yer üzündən silindiyini, 3-nün isə yarıdağınıq vəziyyətə gətirildiyini, o cümlədən tarixi abidələrimizin, şəhərlərimizin necə xarabalığa çevrildiyini öz gözləri ilə görüblər".

**Şəymən**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Əlvida, ustad!!!

## Nəsir müəllim tanrının ona yazdığı 80 illik ömrü ədalətlə, vicdanla yaşadı



**"Tanrı insanı yaradarkən ona müəyyən missiya tapşırır, həmin missiyanı yerinə yetirəcək qədər ömür və enerji verir". Bu sözləri hələ 5 il əvvəl "Şərq" qəzetinə müsahibəsində professor Nəsir Əhmədli demişdi. Sözsüz ki, qocaman ustadımız tanrının ona 80 il ömür yazdığını bilmirdi. Hələ jurnalistikaya dair arzuları, görəcəyi işləri çox idi. Əks halda Tanrıya xitabən**

***"Əlimdə yarımçıq işlərim qalıb,***
***Gözlə, gələcəyəm qurtaran kimi"***
*şeirini yazmazdı.*

Nəsir müəllim ədalətli və vicdanlı müəllim obrazı ilə tələbələrinin, ümumilikdə cəmiyyətin xüsusi sevgisini, rəğbətini qazanmış dəyərli aydınlarımızdan biri idi.

N.Əhmədli həm də Azərbaycan ədəbi dilinin saflığını, düzgünlüyünü qoruyan dil normalarının keşikçilərindən, dilimizi ən xırda incəliklərinə qədər bilən çox az saylı alimlərimizdən idi.

Dilimizi yad təsirlərdən təmizləmək üçün gecə-gündüz çalışır, yazılışında və tələffüzündə səhvlik olan sözlərin düzgün variantını göstərirdi. Amma ömrü vəfa etmədi!

**Kimin Nəsirgilə düşərsə yolu,**
**Doğma kəndi bilsin qoy Alakolu...**
**deyən ustadımız ömrünün 80-ci baharında**
**doğma Alakolunda haqq dünyasına qovuşub.**

Nəsir Əhmədli bu gün mətbuatda əli qələm tutan çox sayda jurnalistlərin müəllimi olub. O, sözün həqiqi mənasında öz peşəsini sevən, sevdirən və yaşadığımız zamanın ruhunu cilalayan bir ustad idi. Fakültədə Nəsir müəllimi hamı sevir, bir ağsaqqal kimi ona hörmət edirdi. Saza-sözə bağlı olan Nəsir müəllim dərs fasilələrində tələbələri ilə zarafatlaşmağı da unutmurdu. Bəlkə də buna görədir ki, nə vaxt adı çəkilsə, vaxtilə onun tələbəsi olmuş həmkarlarımızın əksəriyyətinin üz-gözündə xoş ifadələr yaranır. O, tələbələrlə söhbətlərində Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsini halallıq məktəbi adlandırırdı. Bütün fakültə isə onu sadəliyin zirvəsi, insanlığın simvolu, şərəfin və ləyaqətin güzgüsü kimi görür, ədalət mücəssəməsi kimi tanıyırdı.

Qeyd edək ki, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin professoru, Əməkdar jurnalist Nəsir Əhmədli uzun sürən ağır xəstəlikdən sonra iyunun 7-də dünyasını dəyişib. Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrası-



***Bütün fakültə onu sadəliyin zirvəsi, insanlığın simvolu, şərəfin və ləyaqətin güzgüsü kimi görür, ədalət mücəssəməsi kimi tanıyırdı***

nın professoru, filologiya elmləri doktoru Nəsir Əhmədli 01 iyul 1942-ci ildə Tovuz rayonunun Alakol kəndində anadan olub. 1959-cu ildə həmin kənddə orta məktəbi bitirib. 1962-1965-ci illərdə hərbi xidmətdə olub. 1971-ci ildə BDU-nun Jurnalistika fakültəsini bitirib. 1981-ci ildə "Sovet gerçəkliyi və xarici publisistikada onun inikası (Sovet Azərbaycanı haqqında 1966-1975-ci illərdə dərc olunmuş materiallar əsasında)" mövzusunda namizədlik dissertasiyası müdafiə edib. 2007-ci ildə "Azərbaycan Beynəlxalq Radiosunun Yaxın və Orta Şərq ölkələrinə yayımı: tarix, təcrübə, nəzəriyyə" mövzusunda doktorluq dissertasiyası müdafiə edib. Müxtəlif illərdə V.Sturua adına Bakı Gəmi Təmiri Zavodunda, Azərbaycan Dövlət Televiziyasında çalışıb. 2004-cü ildən "Beynəlxalq jurnalistika" kafedrasında çalışır. Tədris etdiyi fənlər: "Jurnalistin nitq mədəniyyəti", "Azərbaycan Beynəlxalq Radiosu: tarix və ənənə", "Xüsusi kurs", "KİV xaricə siyasi informasiya yayımı sistemində". 100-ə yaxın məqalənin, 3 monoqrafiyanın, 1 dərsliyin, 5 dərs vəsaitinin, bütövlükdə 12 kitabın müəllifidir. 5 elmlər namizədinə rəhbərlik edib, 1 elmlər doktorunun, 20-yə yaxın elmlər namizədinin rəsmi opponenti olub. Beynəlxalq radio yayımının jurnalistikanın bütün sahələrinə tətbiq edilə biləcək model-sxemini hazırlayıb, bu sahədə fəaliyyət göstərən 6 qanun aşkarlayıb. "Media açarı-2006"-ya, Ali Media Mükafatına, müxtəlif diplom və Fəxri fərmanlara layiq görülüb. Moskvada, Bakıda, Almatıda, Tbilisidə, Ufada, Sankt-Peterburqda, Lüblində konfranslarda iştirak edib. Məruzələri xaricdə nüfuzlu elmi jurnallarda dərc olunub. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin, Azərbaycan Mətbuat Şurası İdarə heyətinin üzvüdür.

*N.Əhmədlinin ölümü bütün media cameəsi və tələbələri üçün ağır itkidir. Onun ölüm xəbərini eşidən hər kəs sosial şəbəkə vasitəsilə ustadı anıb, ona Allahdan rəhmət diləyib.*

**"525-ci qəzet"in redaktoru Yusif Rzayev:**

- Nəsir müəllimi - təkcə pedaqoq məqamı ilə yox, həyatı, əxlaqı ilə də örnək xocamızı, abırlı söz ustasını itirdik.

**Jurnalist Qabil Abbasoğlu:**

- Bir-birimizə "atam oğlu" deyirdik. Atalarımız adaş idi, ondan. Yaş fərqini mən qorusam da, o hiss etdirmirdi, taytuş kimi davranırdı. İndi yoxdur... Yeri boş qalan adam. Müəllim. İnsan. Dost. Əlvida, əziz Nəsir Əhmədli ...

**Şair-yazıçı Əkbər Qoşalı isə yazıb ki, ustad Nəsir Əhmədli haqqa yürüdü... Tanrı qatında yeri uca olsun. Ocağı sönməsin!**

Bakı Dövlət Universitetinin Beynəlxalq jurnalistika kafedrasının dosenti Pərvanə İbrahimova isə Nəsir müəllimi "Salamat qal" şeiri ilə xatırlayıb:

**Sona çatdı əzəl dünyam,**
**Özəl ömrüm, özəl dünyam.**
**Salamat qal, gözəl dünyam,**
**Bəlkə bir də var olmadım.**

*Məkanınız cənnət olsun, Ustad!*

**Aydınlar Partiyasının sədr müavini Qorxmaz İbrahimli** isə deyib ki, millətimizin daha bir dəyərli aydınını, sevimli müəllimimizi və əziz dostumuzu itirdik: "Nəsir müəllim də gedişində yeri boş galacaq, görünəcək kişilərdən idi. Bərabər çox gözəl günlərimiz olub, bu sevimli insanla. Özündən gənclərlə dostluğu bir ayrı kef verirdi ona. Biz sizi hər zaman sayğı, sevgi və rəhmətlə anacağıq, Nəsir bəy. Nur içində yatın!".

**AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin İnformasiya şöbəsinin müdiri Vüsalə Rafiqqızı:**

- Mən "Jurnalistika" fakültəsini oxumamışam. Amma jurnalist işlədiyim dövrdən "Jurnalistika"nın müəllimlərinin böyük əksəriyyəti ilə ünsiyyətdə olmuşam. Onlardan dəyərli məsləhətlər almışam. Başqa bir universitetdə praktiki jurnalistikadan dərs dediyim dönəmlərdə də mənə dəstəkləri böyük olub. Müəllim insanın ən böyük dostudu. Çünki kitabı da, gələcəyə görünən işıqlı yolu da müəllimdən başqa heç kim sənə öyrədə bilməz. Nəsir müəllim, tək jurnalistikada oxuyan həmkarlarım üçün yox, mənim kimi başqa təhsildən gələn və öyrənmək istəyən jurnalistlər üçün gözəl məsləhətçi və müəllim idi. Məkanı cənnət olsun!".

**BDU-nun Jurnalistika fakültəsinin müəllimi Nəmənd Rüstəmov:** "Əlvida ustad... Dilimizin nəzəri-praktik incəliklərinin mahir bilicisi, jurnalistika fakültəsinin istinadgah və sütunlarından biri Nəsir Əhmədlinin üzücü xəstəlikdən sonra vəfatı elmi-pedaqoji cameəmiz üçün ciddi itkidir. Allah rəhmət eləsin!".

**"Demokratik Azərbaycan Naminə" İctimai Birliyinin sədri Elməddin Behbudun** sözlərinə görə, cəmiyyət üçün faydalı ömür sürdü, gözü-könülü tox, ləyaqətlə yaşadı. Yalnız pedaqoq kimi deyil, həm də əxlaqı ilə nümunə oldu. Elmimiz və jurnalistikamız üçün ağır itkidir! Ruhunuz şad olsun, Nəsir müəllim!

Yazıçı-jurnalist İlqar Rəsul isə yazıb ki, hər kəsin yoxluğu varlığı qədər olur. Nəsir müəllim çox böyük yoxluq yaratdı: "Bəzən istəyirsən, küçəyə çıxıb ürəkdən ağlayasan. Sonra düşünürsən ki, yox, olmaz, ağlasan, hamı soruşacaq, nə olub? Və sən əslində nə baş verdiyini heç cür izah edə bilməyəcəksən..."

**P.S. "Şərq" qəzetinin rəhbərliyi və kollektivi dəyərli müəllimimiz Nəsir Əhmədliyə Allahdan rəhmət diləyir! Ruhu şad olsun!**

**Şəymən Bayramova**

# Ağacları kəsənlərin çənbəri daralır

## Qanunsuz parkinqlərə qarşı mübarizə başladı



**Bakının Nəsimi rayonu, Bülbül prospektində ağaclar kəsilib, yerində parkinq salınıb. Bununla bağlı sosial şəbəkələrdə paylaşımlar edilib. Jurnalist Əzizə İsmayılova da hadisəyə münasibət bildirib. O, paylaşımında narazılığını bildirərək, ağacların soyqırımının məqsədli şəkildə həyata keçirildiyini vurğulayıb:**

"Bəli, Bakıda, həm də şəhərin düz göbəyində, ənənəvi "burda mənəm, Bağdadda kor xəlifə" nümayişi. Ərazidəki ağacları kəsib çox möhtərəm insanların milyonluq avtomobilləri üçün məxsusi parkinq düzəldiblər. Hansı ki, beş addım o tərəfdə yeraltı parkinq var.

Bəli, əgər pulun və kreslon varsa, sənə bu ölkədə bütün işıqlar yaşıl yanacaq. Sən nəinki ağacları kəsib yerində avtomobilinə parkinq düzəldə bilərsən, üstünü düzəltsən, lap yoldan keçənləri tutub maşına keşik çəkməyi tələb də edə bilərsən. Puluna minnət...

...Ağacların soyqırımında yaxından-uzaqdan iştirakı olan hər kəsə ən içdən gələn səsimlə arzu edirəm ki, həmişə sayıb qurtarmaq mümkün olmayacaq qədər pulunuz olsun, amma heç vaxt almağa nəfəs tapmayasınız. Dərdiniz-səriniz ancaq 1-cə saat rahat nəfəs almaq olsun. İnsanların nəfəsinə qənim kəsilənlərə bundan artığını deməyin mənası yoxdur".

**"Bələdiyyələrin Fəaliyyətinin Təbliği" İctimai Birliyinin sədri Vüqar Tofiqli hadisəyə münasibət bildirib. O, "Şərq"ə açıqlaması zamanı bildirib ki, məsələ diqqətdə saxlanılmalıdır:**

"İstənilən halda bu gün biz Bakımızı təmiz və sağlam bir şəhər kimi görmək, turistlərin bura cəlb edilməsi ilə bağlı müəyyən addımlar atmaq istəyiriksə, şəhərin təmiz havasına, yaşıllığına, o cümlədən, ətraf mühitinin qorunmasına ciddi diqqət yetirməliyik. Bununla bağlı müvafiq orqanlar daim şəhəri nəzarətdə saxlamalı və buna uyğun addımlar atmalıdır. Sözsüz ki, burada hər bir vətəndaşın da üzərinə məsuliyyət düşür. Vətəndaş olaraq, müəyyən məsələlərin vaxtında üstünə düşmək, ictimailəşdirmək lazımdır. Düşünürəm ki, bu məsələ də sona qədər araşdırılmalıdır, lazımi adamlar da cəzasını almalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi də bu məsələyə ciddi diqqət yetirməli və nəzarətdə saxlamalıdırlar".

**V.Tofiqli başqa bir məqamı da xatırladıb:**

"Bakı şəhəri, Təbriz küçəsi 10 ünvanında digər faciəli məqam yaşanıb. Ərazidə pilot layihə proqramını həyata keçirən "İNTEKS" MMC söküntü işlərini aparmaqla yanaşı onlarca ağacı "kökündən qaşıyıb" çıxarıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nərimanov bələdiyyəsinin sorğusuna cavab olaraq göndərdiyi məktubda qeyd edilib ki, "əməkdaşlarımız tərəfindən əraziyə baxış keçirilərkən orada 39 ədəd müxtəlif cinsli (Tut, Safora, Liqustr, Ayland cinsli) yaşıllıqların olduğu müəyyən edilib.

Həmçinin təqdim edilən fotoşəkillərdə və "Google Earth" proqramı vasitəsiylə əraziyə 2016-2021-ci il dövrü vizual olaraq baxış keçirilib və ərazidə 5 ədəddən artıq yaşıllığın mövcud olmadığı müşahidə edilib. Bu isə o deməkdir ki, ərazidə müxtəlif vaxtlarda 34 ağac məhv edilib. Bəs, sual olunur, müvafiq orqanlar indiyədək hara baxıb, niyə vaxtında ölçü götürməyiblər?".

*Qeyd edək ki, məsələ ictimailəşdikdən sonra Bakı Şəhər İcra Hakimiyyəti açıqlama yayıb. Qurumun verdiyi məlumata görə, ölkə başçısı İlham Əliyevin tapşırığına əsasən Nəsimi rayonu, Bülbül prospekti 18-30 ünvanında ağacların qanunsuz kəsimi və qeyri-qanuni parklanma yerinin yaradılması ilə bağlı müvafiq araşdırmalara başlanılıb.*

*"Sosial şəbəkələrdə Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti 18-30 ünvanında ağacların kəsilməsi, parklanma yerinin yaradılması və bunun nəticəsi kimi piyada səkisinin daraldılması barədə məlumatlar yayılmışdı. Qanunsuz parklanma Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı tərəfindən yaradılıb. Ölkə başçısının tapşırığına uyğun olaraq dərhal qanunsuz parklanma yerinin sökülməsinə və piyada səkisinin əvvəlki vəziyyətinə gətirilməsinə başlanılıb. Həmçinin təqsirkarların müəyyən edilməsi məqsədilə araşdırmalar aparılır", - məlumatda qeyd edilib.*

**Çimnaz Şahlar**

## Elcan: "Zibillikdən butulka yığırdım, bədənim yara olmuşdu"



**Aktyor Elcan Rəsulov "Söz baz" verilişinin qonağı olub.**

Axşam.az xəbər verir ki, aktyor uşaqlıq illərində yaşadığı çətinliklərdən danışıb:

"İlk qazancım, deyəsən, 1 mənməd idi. 6 ya 7-ci sinifdə oxuyurdum. O zamanlar Yeni Yasamalda binalar yox idi, düzənlik bir yer idi. Yığılan zibilləri aparıb ora tökürdülər. Onşularımızdan 1-2 nəfərlə oranı kəşf etmişdik. Çünki, ən çox butulka orada olurdu. Zibilliyin içindən butulkaları yığıb, təmizləyib, yeşiklərə yığırdıq. Bədənimizin hər yeri yara idi, çünki zibilliyin içindən butulka yığdığımız üçün cücülər bizi dişləyirdi.

Adı Seyid olan bir dostum var idi, mənə yaxından baxıb dedi ki, çox pis gündəsən, heç kim üzünə də baxmayacaq. Sonra çox pis oldum ki, bəlkə bir də ora getməyim, amma yenə getdim. O qədər getdik ki, orada da butulka bitdi. Bunları danışmaqdan heç zaman utanmamışam".


**Elan**

Musayev Ağahüseyn Əbdül oğluna Sabunçu rayon Hərbi Komissarlığı tərəfindən verilmiş 071545 nömrəli Veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Həsənova Leyla Aşur qızına məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Rəhimova Gülşən Əhməd qızına verilmiş AA1437123 nömrəli Azərbaycan Respublikası şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


## Nazirlik qaziləri üz-üzə qoyur

Kamil Musavi: "Oyunbazların oyununa gəlməyin"



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə (ƏƏSMN) gələn bir qrup Vətən müharibəsi qazisi ölkəmizdə şəhid ailələri və qazilərin sosial müdafiəsi sahəsində aparılan işlərdən razılıqlarını bildirib və fotoşəkil paylaşıblar.**

Sözügedən hadisə problemləri həll edilməyən qazilərimiz tərəfindən birmənalı qarşılanmayıb. Bir sözlə, ƏƏSMN qaziləri üz-üzə qoyub. Bir tərəfdə işləri həll olunan tərəfin razılığı, digər tərəfdə isə əlillik dərəcəsi ala bilməyən tərəfin aksiyası. Əlbəttə, bu hal sosial mediada müzakirə mövzusuna çevrilib.

**Vəziyyəti dəyərləndirən Qarabağ qazisi Kamil Musavi "Şərq"ə bildirib ki, qaziləri üz-üzə qoymağın əleyhinədir:**

"Bütün müharibə iştirakçılarına səslənərək xahiş edirəm ki, oyunbazların oyununa gəlməyin. Haqqını tələb edən döyüş yoldaşlarınızın yanında olun. Çünki onlar qanunsuz heç bir şey tələb etmirlər. Bu o demək deyil ki, heç bir kəsin problemi həll olunmayıb. Amma gərək hər kəslə eyni dərəcədə maraqlanılsın. ƏƏSMN boş ümidlər verərək vaxt udmağa çalışdıqca vəziyyət daha da gərginləşəcək. Bu insanlara ya əlillik dərəcələri verilməli, yaxud da işlə təmin edilməlidirlər".

**Nihat Müzəffər**

## "Tik-Tok" ilan zəhəri kimidir

**Son dövrlərdə məşhur olan "Tik-Tok" sosial platforması haqqında ziddiyyətli fikirlər dolaşır. Bəziləri Tik-Tok-un zərərli platforma olduğunu, bəziləri isə fayda verdiyini düşünür. Sözügedən sosial platformaya maraq həm də canlı yayımlarda verilən hədiyyələr, göndərilən jetonlarla bağlıdır.**




Əhməd Qəşəmoğlu:
"Mənəvi müdafiə sistemini gücləndirməliyik"
Natiq Cəfərli:
"Onlayn mağazalar, oyun platformalarının əsas qayəsi pul qazanmaqdır"

Çünki bunlar canlı yayım açan şəxsə də kifayət qədər pul qazandırır və jetonlara görə izləyici ödənişlər edir. Məktəblilər "Tik-Tok" videoları üçün ağlasığmaz hərəkətlər edir, metroda relsə düşüb, tuneldə qaçır və ya məktəbdə yanğınsöndürən balonu partladırlar. Məlum platforma daha çox əyləncəyə, həm də yüngül əyləncəyə, lağlağıya, ucuz və asan şöhrətə meyilli şəbəkədir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan sosioloq Əhməd Qəşəmoğlunun fikirlərinə görə, dünyada "Tik-Tok"un mövcudluğu sual altındadır:**

"Amerikanın eks prezidentinin D.Tramp da "Tik-Tok"la bağlı narahatlığını bildirmişdi. Platformanın yaxşı tərəfləri də var. Elə dövrdə yaşayırıq ki, internet, sosial şəbəkələr həyatımızın ayrılmaz hissəsinə çevrilib. Mən "Tik-Tok"dan dərman bitkiləri haqqında məlumatlardan faydalanmışam. Sosial şəbəkələr ilan zəhəri kimidir. Çünki ilan zəhərindən düzgün istifadə etsək, dərmandır, dozanı artırsaq, zəhərləyə, hətta öldürə bilər. "Ömrün uğurlu bünövrəsi" kitabım var. Vurğulamışam ki, uşağın tərbiyəsi ana bətnindən başlayır. Uşaq məktəbə gedənə qədər onun təsəvvürləri formalaşmalıdır. İndiki cəmiyyəti 20-30 il öncəki metodlarla idarə etmək mümkün deyil. Heç bir insana "bunu et, onu etmə" demək doğru deyil. Ziyanlı informasiyaya yuxarıdan aşağı baxmaqlarından ötrü balacalıqdan təsəvvür yaradılmalıdır. Mənəvi müdafiə sistemini gücləndirməliyik".

**İqtisadçı-ekspert Natiq Cəfərli valideynindən icazəsiz sosial şəbəkəyə girən uşaqlarla bağlı fikirlərini bölüşüb:**

"Tik-Tok" da pul qazanmaq sxemi ilə tanış deyiləm. Lakin valideynindən xəbərsiz telefonlar, planşetlərlə yaranan uşaqlar varsa, gələcəkdə problem yarada bilər. Valideyn nəzarəti gücləndirilməlidir. Təsdiqləmə kodu, geri dönüş kimi xüsusiyyətlər olmalıdır. Valideynlərinin telefonundan istifadəsinə dair şikayətlər eşidirik. Onlayn mağazalar, oyun platformalarının əsas qayəsi pul qazanmaqdır. Prosesi gerçəkləşdirmək üçün çətin mexanizm yaratmırlar, daha da asanlaşdırırlar. Pulun hesabdan silinməsi qəlizləşdirilməlidir".

**Aygün Tahir**


Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu

KURSLAR

-MÜHASİBAT (2 AY)

-Mobil telefonların təmiri (3 ay)

-KOMPYUTER (1-3 AY)

-KOSMETOLOGİYA və VİZAj (3 AY)

-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)

-Dizayn (3-6ay)

-Masaj (3 ay)

-Biçmə - Tikiş (3 ay)

-Məktəb Psixologiyası (12 ay)

Tel: (012) 489-08-84

Mob: (070) 241-28-67

www.az-baku.com


## Müəllim hər yerdə müəllimdir

Tədrisdən sonra da etik qaydalara riayət edilməlidir



**Sosial şəbəkədə akademik Zərifə Əliyeva adına liseyin müəllimlərinin videosu yayılıb. Görüntüdə hər iki müəllimin qeyri-adekvat davranışı tənqid predmetinə çevrilib. Teleqraf.com "Şərq"ə xəbər verir ki, iddialara görə, video təhsil kompleksində çəkilib.**

Görüntü zamanı müəllim göbək rəqsi oynayır, təşkilati işlər üzrə direktor müavini Axundova Nigar müəllimin sinəsinə pul basır. Məlum görüntü sosial mediada, eləcə də ictimaiyyətdə müzakirələrə yol açıb. Kimi "Həmin müəllimlər auditoriyada deyillər, şəxsi məclisdə əyləniriər və istədikləri davranışı sərgiləməkdə sərbəstdirlər" iddiası ilə çıxış edib, onlara haqq qazandırır, kimi isə "Müəllim adı və peşəsi müqəddəsdir. Bəs niyə bəzi təhsil işçiləri bu adın ağırlığını unudur?" fikirlərini paylaşır...

**Məsələyə münasibət bildirən təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında qeyd edib ki, video evdə, şəxsi əyləncə zamanı çəkilib və məktəbin nüfuzunu aşağı salmaq üçün paylaşılıb:**

"Zərifə Əliyeva adına lisey istər tələbələrin qəbul səviyyəsi, istərsə də müəllimlərin peşəkarlığı baxımından Azərbaycanın ən öndə gələn məktəbidir. Əlbəttə, hər bir insanın azad istirahət hüququ var. Lakin 2014-cü ildə qəbul edilmiş təhsil işçilərinin davranış qaydalarına görə istər tədris zamanı, istər tədrisdən sonra etik qaydalara riayət edilməlidir. Bu təhsil işçilərini həm liseyin prestijini, həm də milli mentalitetimizi nəzərə almalı idilər".

**Nihat Müzəffər**

## Bu qədər rüsvayçılıq olmamışdı

**Müğənni Damla Naxçıvanda solo konsert proqramında çıxış edib. İfaçı səhnədən düşərək, onu izləməyə gələn tamaşaçılarla görüşüb. Həmin zaman böyük izdiham yaşanıb.**



Küçədən gəlmə müğənnilərə, bar qızlarına qarşı çox böyük sevgi bəslənir

Fanatları Damla ilə ünsiyyət qurmağa, əlini tutmağa çalışıblar. Hətta hönkür-hönkür ağlayanları da paylaşılan videoçəkilişdə görmək mümkündür. İnsanların müğənni üçün sərgilədikləri bu davranışlar ictimai qınağa səbəb olub. Sosial şəbəkələrdə qadınların belə rəftar etməsi müxtəlif tənqidlərə yol açıb. Həmin hərəkətləri hər hansı Azərbaycan qadınına yaraşdırmayıblar.

**Sosioloq Elçin Bayramlı "Şərq"ə açıqlamasında təəssüflə bildirib ki, son illər bu tip hadisələrin daha tez-tez şahidi oluruq:**

"Cəmiyyətimizdə son vaxtlar həqiqi mənada mənəvi deqradasiya gedir. Müxtəlif səbəbləri ola bilər. İndiki zamanə insanları milli-mənəvi dəyərləri heçə sayaraq, müasir bir insan təəssüratı bağışlamaq istəyirlər. Özünüreklam dəb düşüb.

Tanınmaq xatirinə müxtəlif oyunlardan çıxmaq kimi hallar Azərbaycan qadını adına yaraşan deyil. Neçə min illik tariximizdə heç vaxt belə vəziyyət müşahidə edilməyib. Son zamanlar şahidi olduğumuz biabırçılıqlar televiziyalarda davamlı olaraq, gənclərə əyləncənin təbliğ olunması səbəbindən baş verir.

Mediada bu kimi şəxslərin adının çəkilməsi, cəmiyyətə ideal kimi təqdim olunması gəncləri uçuruma sürükləyir. Onlar alimlərimizi, ziyalılarımızı, müxtəlif dünya şöhrətli şəxsləri, mədəniyyət sahəsindəki karifey sənətkarlarımızı artıq heç kim saymır.

Amma küçədən gəlmə müğənnilərə, bar qızlarına, qarşı çox böyük sevgi bəslənir. Hansı ki, burada heç bir dəyərdən, sənətdən söhbət gedə bilməz. Dünya ölkələrində dünya ulduzlarının müəyyən qədər belə formada qarşılanma hallarına rast gəlinir. Amma onlar dünyada ad-san qazanmış sənətkarlardır. Hətta o zaman belə bu qədər rüsvayçılıqlar olmur.

**E.Bayramlı qeyd edib ki, ölkəmizdəki bayağı, düşük, tamamilə səviyyəsiz, cəmiyyətə heç də müsbət mesajlar ötürməyən maddi dəyərləri gənclərə aşılayırlar:**

"Bunun qarşısını almaq üçün də sosioloqlar, yurnalistlər son 10-20 ildə belə mövzuları yazır, sərt şəkildə tənqid edirlər. İctimai qınaq da bu yaxınlara kimi var idi. Lakin indi zəifdir".

İnsanın şüuraltısına televiziyanın, sosial şəbəkələrin çox böyük təsiri elmi şəkildə hər kəsə məlumdur. Dövrümüzün adamları sanki bizim milli-mədəni irsimizə aid deyil. Onların əksəriyyətinin milli kimliyindən, mədəniyyət əsərlərimizdən xəbərləri yoxdur. Amma küçədən çıxan bu kimi şəxslərə, heç bir yaradıcılığı olmayan insanlara böyük bir dahi kimi baxırlar.

Əfsuslar olsun ki, getdikcə bu hallar artıq utanılacaq duruma gəlib çıxır. Əgər burada həm dövlət, həm də ictimai qınaq birgə olmasa, cəmiyyət belə mövzulara göz yumsa, vəziyyət bundan da pis olacaq".

**Sücayət Mehti**


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:

Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1619



## Bred Pittdən iddia...

### Angelina Coli Miraval qalasındakı payını ona zərər vermək üçün satıb

**Amerikalı aktyor Bred Pittlə keçmiş həyat yoldaşı Ancelina Coli arasında məhkəmə çəkişməsi davam edir. Pitt, 2021-ci ildə "Miraval Castle" şərab zavodundakı payını rusiyalı iş adamına satan Colini bilərəkdən ona zərər verməkdə günahlandırır.**

2020-ci ildə rəsmən boşanan və birlikdə 6 övladı olan Ancelina Coli və Bred Pittin mülk davası Pittin vəkillərinin hərəkətliliyi ilə yeni mərhələyə qədəm qoyur.

58 yaşlı aktyor iddia edib ki, keçmiş həyat yoldaşı Coli bir vaxtlar ortağı olduğu "Miraval Castle" şərab zavodundaki paylarını rusiyalı iş adamına satıb və ona pislik etmək istəyib.

*İddialara görə, Ancelina Coli 2021-ci ildə "Miraval Castle" şərab zavodundakı payını rusiyalı araq istehsalçısı Yuri Şeflerə satıb.*

**Turan**

## Şahzadəyə bənzəyir

### Xoşbəxt cütlük böyüməkdə olan qızlarının fotosunu paylaşdılar




**Şahzadə Harri və həyat yoldaşı Meqan Markl qızları Lilibetin ilk doğum günü üçün fotosunu paylaşıblar. "Şərq" türk mediasına istinadən xəbər verir ki, Lilibetin ad günü fotoları obyektivlərə əks olunarkən, Lilibetin şahzadə Harri ilə oxşarlığı diqqət çəkib.**

Cütlüyün qızlarının ilk doğum gününə xüsusi olaraq iqlim və cəmiyyət böhranlarından əziyyət çəkən insanlara yeməklər təqdim edən "World Central Kitchen" qeyri-kommersiya təşkilatına qızları adından 100 min dollardan çox pul bağışladığı bildirilib. İkili qızlarının ad günündə aldıqları xoş arzuların onlarda böyük təəssürat yaratdığını da bildirib.

Digər tərəfdən, Şahzadə Harri və Meqan Markl bu yaxınlarda Kraliça Elizabethin Platinum Yubiley tədbiri üçün İngiltərədə idilər. ABŞ-dan Böyük Britaniyaya səfər edən cütlük ilk dəfə qızları Lilibeti Kraliça Elizabetlə tanış ediblər. Deyilənlərə görə, Markl və Harri Kraliçanın Lilibetlə ilk görüşünün şəklini çəkmək üçün xüsusi fotoqraf təşkil edib, lakin kraliça buna qətiyyən icazə verməyib. İddiaya görə, kraliçanın həmin anların şəxsi ailə görüşü olduğu və şəkillərin mətbuatla paylaşacağından narahat olduğu üçün fotoşəkil çəkməyə icazə vermədiyi deyilir.

**Çimnaz Şahlar**



# Xərçəngin müalicəsində bir ilk

## Bütün xəstələr sağaldı



**ABŞ-da xərçəngin müalicəsi ilə bağlı yeni bir araşdırmanın nəticələri nəşr olunub. 18 rektal (yoğun bağırsaq) xərçəngi üzərində aparılan araşdırmada altı ay ərzində üç həftədən bir dozada dərman qəbul edən iştirakçıların hamısının xəstəliyindən sağaldıqları məlum olub.**

"New England Journal of Medicine"də nəşr olunan və dərman firması "GlaxoSmithKline" tərəfindən dəstəklənən araşdırmada xərçəng xəstələrinin fiziki müayinə, endoskopiya, PET və ya MRT müayinələrində heç bir xəstəlik əlaməti göstərmədikləri və tamamilə sağaldıqları ifadə edildi.

Məqalənin həmmüəllifi. Andrea Cercek işlər haqqında "Çox sevinc göz yaşları var idi" deyə bildirib.

Araşdırmada 18 rektum xərçəngi xəstəsinə üç həftədə bir dozada dərman verildiyi, müalicənin altı ay davam etdiyi və hər bir dərman dozasının 11 min dollara başa gəldiyi vurğulanıb.

Altı aylıq dərman müalicəsinin ardından xəstələr 12 ay müddətində izlənilib və prosesin sonunda heç bir xərçəng hüceyrəsi və ya simptomun aşkar edilmədiyi müəyyənləşib.

Araşdırmanın artıq kiçik qrup üzərində sınaqdan keçirildiyi və gələcəkdə daha böyük qruplarla aparılacağı vurğulanıb.

Məqalənin müəllifi Memorial Sloan Kettering Xərçəng Mərkəzindən Dr. Luis A. Diaz Jr. "İnanıram ki, bu, xərçəng tarixində ilk dəfədir" deyib və müalicənin bütün xəstələrdə xərçəngi tamamilə aradan qaldırdığını söyləyib.

Tədqiqatda "Dostarlimab" adlı dərmandan istifadə edildiyi, tədqiq edilən dərmanın xərçəng hüceyrələrinin maskasını açdığı və immunitet sisteminin onları tanıyıb məhv etməsinə imkan verdiyi bildirilib.

**Turan**

## Fırlanan ev hazırlandı

### Günəş enerjisi ilə qızdırılır



**"Solaleyya Designs" arxitektura studiyası tərəfindən hazırlanan "Domespace" adlanan taxta ev əslində unikal dizayna malikdir və günəş enerjisi ilə qızdırılır.**

**Azərtac xarici saytlara istinadla xəbər verir ki, evin günbəzi fırlanan dayağa quraşdırılıb. Bunun sayəsində isə günəş panelləri olan günbəz günəşin olduğu istiqamətə çevrilə bilir. Bundan əlavə, onun aerodinamik forması istənilən təbii fəlakətlərə qarşıdır.**

## Buxar gəmisi 80 ildən sonra dənizin dibində tapılıb




**İkinci Dünya Müharibəsində suda batırılan İspaniyanın "San İsidro Labrador" buxar gəmisi 80 ildən sonra Yunanıstanın "Kythnos" adası yaxınlığında yaxşı vəziyyətdə tapılıb. Azərtac EFE agentliyinə istinadla xəbər verir ki, Afrikanın şimalına silah daşımaq üçün nasist Almaniyasının Nəqliyyat Nazirliyi tərəfindən icarəyə götürülən gəmi 1943-cü il aprelin 4-də Yunanıstanın "Katsonis" sualtı qayığı tərəfindən torpedo ilə atəşə tutulduqdan sonra batıb.**

## Ebru Gündeş diqqətdən yayınmır

### Özündən 20 yaş kiçik sevgilisi ilə fotosu yayılıb



**Türkiyəli müğənni Ebru Gündeşin özündən 20 yaş kiçik yeni sevgilisi, iraqlı gənc iş adamı Rassan Hoşnau ilə fotosu yayılıb. Cütlük münasibətləri ilə bağlı açıqlama verməsə də iş adamının Gündeşin bütün konsertlərinə qatıldığı və ön sırada əyləşdiyi diqqətdən yayınmır.**

***Qeyd edək ki, müğənni bundan əvvəl Cənubi Azərbaycandan olan iş adamı Reza Zərrabla ailəli olub. İkilinin Alara adlı bir qızı var.***




## Dünyanın ən böyük sərnişin təyyarəsi parça-parça olacaq

### Mühəndis ilginc detallara aydınlıq gətirib

**Təyyarə istehsalçısı "Airbus" istehsalını artıq dayandırdığı A-380 sərnişin təyyarələrindən birini parça-parça etmək qərarı verib. Qərarın arxasında nə dayanır, səbəb nədir, bu, çoxlarını, xüsusilə də aviaşirkətləri maraqlandırır. Təyyarə mühəndisi və hava yolları mütəxəssisi Muhammed Yılmaz bununla bağlı ilginc detallara aydınlıq gətirib.**

"Şərq" "Milliyet.com"a istinadən bildirir ki, "Airbus" tərəfindən istehsal edilmiş A-380 tipli təyyarələr nəhəng ölçülərə malik olmaları ilə fərqlənir. Bu tip təyyarələr həmişə diqqət çəkir. Yaxın zamanlaradək nəhəng təyyarə deyildiyində ağla ilk gələn AN-225 (yük təyayrəsi) və A-380 (sərnişin təyyarəsi) olurdu. Təəssüf ki, Rusiya-Ukrayna müharibəsi səbəbiylə AN-225 səmayla vidalaşmalı oldu. Və müharibənin ən böyük qurbanlarından birinə çevrildi. AN-225-in yolu bağlandı, çoxsaylı ölkələr bu təyyarəni səmalarında görmək istəmədi. A-380 təyyarəsi isə fərqli hava yolları şirkətlərinin xətti ilə uçmağa davam edir. Lakin onun da ömrünə az qalıb. İstehsalçı şirkət A-380-ni yaxın zamanda hissələrə ayıraraq satışını təşkil etmək niyyətindədir. Təyyarənin təxminən 500 hissəyə bölünəcəyi bildirilir. Satış isə həm internet üzərindən, həm də açıq auksiyon vasitəsilə həyata keçiriləcək. Açıq auksiyonun oktyabr ayında keçiriləcəyi qeyd edilir. Auksiyon Tuluza şəhərində keçiriləcək. Əldə olunacaq gəlir Airbus Vəqfi və ona bağlı qurumlara veriləcək, satılmayan hissələr olarsa əgər, onlar da geri qaytarılacaq. M.Yılmaz aviaşirkətlərin bu satışa böyük ilgi göstərdiyini deyib. Qeyd edib ki, A-380 təyyarəsi kimi tarixi əsərlərə hər zaman müştəri tapılır. Şirkətlər, ayrı-ayrı şəxslər bu tip əşyaları əldə edərək nümayiş etdirməyi sevir və onlara sahib olmaqları ilə qürurlanırlar. M.Yılmaz A-380 sərnişin təyyarəsinə niyə vida edilməsinin səbəbini də açıqlayıb. Mütəxəsssis bildirib ki, bu təyyarələr çox böyük ölçülərə sahib olduqlarından hava yolları şirkətləri üçün bahalı və mənfəətsiz hesab edilir. A-380 istehsal edilərkən xəyallar genişdir. Bu təyyarənin hava yolları "oyun" şərtlərini dəyişdirəcəyi ehtimalı, ehtimal olaraq da qaldı. İstehsalçı ilk günlərdən alıcı tapmaqda çətinlik çəkdi. Bəziləri hesab edirdi ki, airbusun gəlişi 20 il gecikib. Bir qisim isə hava yollarında yaşanan basırıq səbəbiylə bu cür nəhəng ölçülü təyyarələrə ehtiyac qalmadığını düşünür. Ancaq nə olursa, olsun, A-380 mühəndislik möcüzəsiydi. Təyyarələrdən birinin hissə-hissə edilib satışa çıxarılacağına rəğmən A-380-nin 2030-cu ilədək səmalarda olacağı bildirilir.

**Məlahət Rzayeva**

## 15 yaşlı şagird itlərin hücumuna məruz qalıb

### Efe müəllimlərinin müdaxiləsi ilə xilas olub



**Ankarada məktəb bağçasına girmək istəyərkən 10-a yaxın itin hücumuna məruz qalan 15 yaşlı lisey şagirdi Efe müəllimlərinin müdaxiləsi ilə xilas edilib.**

"Şərq" qəzeti türk mediasına istinadən xəbər verir ki, Ankaranın Çankaya rayonunda itin hücumu nəticəsində yaralanan 15 yaşlı orta məktəb şagirdinin xəstəxanada müalicəsi davam edir.

1-ci sinif şagirdi Efe Sarıkaya ötən gün səhər saatlarında məktəbin bağçasına girməyə gedərkən sahibsiz itlərin hücumuna məruz qalıb.

10-a yaxın itin arasında qalan Efe müəllimlərinin müdaxiləsi ilə xilas edilib. Bədəninin müxtəlif yerlərindən xəsarət alan Efe təcili yardımla Ankara Şəhər Xəstəxanasına aparılıb.

Müalicə olunan Efenin səhhətinin yaxşı olduğu bildirilib.

Efenin atası Feridun Sarıkaya oğlunun bədəninin hər yerində diş izlərinin qaldığını bildirib.

Efenin psixologiyasının pis vəziyyətdə olduğunu söyləyən ata sözlərinə belə davam edir: "Bələdiyyələr bu məsələlərdə bir az ciddi hərəkətə keçməlidir. Mən bir heyvansevər kimi uşaqlarımızın yaxşı yaşamasını, qorxmadan küçələrdə oynamasını istəyirəm. Mənim uşağım da heyvanları sevir. Oğlumla birlikdə küçədə heyvanlara yem verirdik; amma uşaqlarımız bu vəziyyətdə olmasın. Bu vəziyyətdə heç kim uşaq sahibi olmamalıdır", - deyə o bildirib.

**Turan**

## Reyhan dərmandır

### Nevroz və əsəbi olanlar bu göyərtini çox yesin



**Reyhan stressin təsirini azaltmağa yardım edir.**

Bakupost.az xəbər verir ki, bu barədə tibb elmləri doktoru, diyetoloq Mixail Qinzburq deyib.

Bu məhsulda B1, B2, B3, B6 vitaminləri çoxdur, onlar da beyinin işini yaxşılaşdırır, sinir sistemini sakitləşdirir.

Təşvişli, nevroz insanlar mübarizə aparmaq üçün reyhandan müxtəlif cür istifadə edə bilər.

Eləcə də farmakologiyada reyhan tərkibli dərmanlar trankvilizatorlar kimi təşviş, həyəcan, stressə qarşı istifadə olunur və effektivdir.

"Bir neçə elmi tədqiqat var ki, quru reyhanı dərman kapsullarında stress pozuntusu olan insanlara veriblər və onlarda təşviş simptomları azalıb".

Stressə qarşı gündə 20-30 qram reyhan yemək kifayətdir.

Reyhanın çayı, şərbəti, dəmləməsi və efir yağından istifadə edə bilərsiz.